www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 aprel 2017-ci il Çərşənbə axşamı № 68 (6682) Qiymәti 60 qәpik

**Xəbər**

## Sərxoş kişi sobanı qucaqlayıb yatdı, yanıb öldü

yazısı səh.14-də

**Gündəm**

### Sankt-Peterburqda törədilən dəhşətli terrorun pərdəarxası



Putin Lukaşenko ilə görüşən ərəfədə Rusiya prezidentinin olduğu şəhər qana boyandı - şübhələr İŞİD-ə yönəlib

yazısı səh.3-də

### Ermənistandakı "seçkilər" Qarabağ məsələsinin dinc həllini quyunun dibinə atdı

yazısı səh.11-də

### Yeni siyasi məhbus siyahısı yenə narazılıq yaratdı

yazısı səh.4-də

### İcra başçısı qəzaya düşən maşınını "yoxa" çıxarmağa çalışır

yazısı səh.2-də

### Şeyximizin şərikinə 9 il həbs cəzası verildi

yazısı səh.4-də

### 27 partiya MSK-ya maliyyə hesabatı təqdim etməyib

yazısı səh.5-də

### İtaliyada TAP əleyhinə aksiyalarda Rusiya izi

yazısı səh.6-da

### İqtisadçı "yaxın 1-2 il ərzində bankların əksəriyyəti bağlanacaq" deyir

yazısı səh.10-da

### Akif Çovdarov ona qarşı sui-qəsd planının olduğunu iddia edir

yazısı səh.7-də

### ABŞ tankları Moskva sərhədlərində - Rusiya-Amerika müharibəsi başlayırmı...

yazısı səh.12-də

### "Dünya gözəldir, intihar etmək yox, yaşamaq lazımdır" - Musa Yaqub

yazısı səh.13-də

## Moskvanın ölkəmizdə növbəti "rus konseyi" planı

# KREMLİN BAKIYA QARŞI YENİ "MİLYARDERLƏR İTTİFAQI" OYUNU, YOXSA...

Rusiya rəhbərliyi ÜAK-ın qeydiyyatının ləğv olunması kimi ciddi siyasi yanlışın qarşısını almaq üçün heç bir çaba göstərmir, bu ölkənin Bakıdakı səfirliyi də susur; Diasporla İş üzrə Dövlət Komitəsi bəyanat yaydı; Azərbaycana qarşı qurulmuş yeni "hüquq oyunu"nun arxasındakı qüvvələr kimlərdir?




yazısı səh.9-da

## Rusiyanın məxfi Qarabağ planı - şərikli işğalçılıq bitəcəkmi?..

25 illik diplomatik əlaqələrin baş sualı; Bakı-Moskva münasibətlərinin önündəki əsas əngəlin - Qarabağ maneəsinin nə vaxt götürüləcəyi bilinmir...

yazısı səh.8-də



*Etibar Məmmədov:*

### ""Allahşükür Paşazadə də orduya yardımlar etmişdi"

yazısı səh.4-də



### Ziya Məmmədov ABŞ qəzetlərini "böhtançı" adlandırdı

yazısı səh.5-də



### Deputat Bəxtiyar Sadıqov iqtidarla müxalifətin "pambıq savaşı"ndan danışdı

yazısı səh.10-da



# Prezident İlham Əliyev Nursultan Nazarbayevə “Heydər Əliyev” ordeni verdi

**Aprelin 3-də Azərbaycan prezidenti İlham Əliyevin Azərbaycanda səfərdə olan Qazaxıstan prezidenti Nursultan Nazarbayevlə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Qazaxıstan sənədləri imzalanıb.**

APA-nın məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyev və Qazaxıstan prezidenti Nursultan Nazarbayev Prezidentlərin Birgə Bəyannaməsini imzalayıblar.

“Azərbaycan Dəmir Yolları” QSC ilə Qazaxıstan Dəmir Yolları Milli Şirkəti arasında logistika və dəmir yolu nəqliyyat maşınqayırması sahəsində strateji əməkdaşlıq haqqında Saziş"i “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanov və Qazaxıstan Dəmir Yolları Milli Şirkətinin prezidenti Kanat Alpısbayev imzalayıblar.

“Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında ikiqat vergitutma sahəsində Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında Protokol”u Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov və Qazaxıstanın Azərbaycandakı səfiri Beybit İsabayev imzalayıblar.

“Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş”i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Qazaxıstanın investisiya və inkişaf naziri Jenis Kasımbek imzalayıblar.

“Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Qazaxıstan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2017-2018-ci illər üzrə Əməkdaşlıq Proqramı”nı Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Qazaxıstanın xarici işlər naziri Kairat Abdraxmanov imzalayıblar.

“Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş”i Azərbaycanın kənd təsərrüfatı naziri Heydər Əsədov və Qazaxıstanın baş nazirinin birinci müavini Askar Mamin imzalayıblar.

Daha sonra Qazaxıstan prezidenti Nursultan Nazarbayevə “Heydər Əliyev” ordeninin təqdim edilməsi mərasimi olub.

Azərbaycan prezidenti İlham Əliyev mərasimdə çıxış edib.

Prezident İlham Əliyev “Heydər Əliyev” ordenini prezident Nursultan Nazarbayevə təqdim edib.

Sonra Qazaxıstan prezidenti Nursultan Nazarbayev çıxış edib.



# “AITF-2017” sərgisində AZAL-ın aviabiletləri oynanılacaq

**“Azərbaycan Hava Yolları” hər kəsi aprelin 6-dan 8-nə kimi Bakıda keçiriləcək 16-cı Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər “AİTF 2017" sərgisindəki stendini ziyarət etməyə dəvət edir.**

“Azərbaycan Hava Yolları” QSC-nin mətbuat xidməti bildirir ki, ziyarətçilər AZAL və onun eksklüziv tərəfdaşı Silk Way Travel-ın birgə stendində aviaşirkətin və turizm agentliyinin nümayəndələri ilə söhbət edə biləcəklər. Həmçinin sərgi iştirakçıları və ziyarətçilərini maraqlı işgüzar görüşlər gözləyir.

Eyni zamanda sərgi müddətində stendin ziyarətçiləri arasında “Azərbaycan Hava Yolları”nın uçuşlar yerinə yetirdiyi istiqamətlərə pulsuz aviabiletlər, həmçinin digər qiymətli mükafatlar oynanılacaq.

Həmçinin iştirakçılar və ziyarətçilər tez-tez səyahət edən sərnişinlər üçün nəzərdə tutulan AZAL MILES proqramında qeydiyyatdan keçərək proqramın iştirakçısı ola bilər və bununla da 50 bonus balı hədiyyə qazana bilərlər.

“AITF” sərgisi Azərbaycanda sürətlə inkişaf edən turizm bazarının əlamətdar hadisəsidir və hər il dünyanın müxtəlif ölkələrindən çoxsaylı iştirakçı və qonaqları bir araya toplayaraq mühüm görüşlərin keçirildiyi və tərəfdaşlıq müqavilələrinin imzalandığı, habelə yeni proqram və istiqamətlərin elan edildiyi turizm sənayesinin qovşağına çevrilmişdir.

# İsrail həkimləri Abid Şərifovun həyatını xilas etdilər



**Azərbaycan Respublikası baş nazirinin müavini Abid Şərifov İsrailin Hayfa şəhərindəki “Rambam” xəstəxanasında müalicə olnur.**

Bu barədə İzrus portalı xəbər verib.

Xəbərə görə, İsrail kardioloqları onun ürəyində yaranan problemlərin müalicəsi ilə məşğul olublar.

Saytına yazdığına əsasən, 77 yaşlı baş nazir müavininin ürəyində hələ keçən həftə problemlər yaranıb və o, Bakıdakı xəstəxanalardan birinə yerləşdirilib. Lakin onun müayinə edən yerli mütəxəssislər həyatına təhlükə yarandığını və müalicə üçün İsrail kardioloqlarına müraciət etməsini məsləhət görüblər.

Azərbaycan nazirinin İsrailə aparılmasını “Horev” tibb mərkəzinin rəhbəri doktor Roman Barak koordinə edib.

Şərifov xüsusi reyslə İsrailə gətirilib və onu “Rambam” xəstəxanasında həkim qrupu qarşılayıb.




# Moskva məhkəməsi Azərbaycan diasporunun rəhbərinin ev dustaqlığının müddətini uzadıb

**Moskvanın Xoroşevski məhkəməsi Moskva vilayəti üzrə Azərbaycanlıların Regional Milli-Mədəni Muxtariyyətinin (MV ARMMM) rəhbəri Qalib Ağayevin ev dustaqlığının müddətini aprelin 16-dək uzadıb.**

Bu barədə “Report”un Rusiya bürosuna MV ARMMM-dən bildiriblər.

MV ARMMM nümayəndəsinin dediyinə görə, ərizəçi “Rusiya dünyası” Fondu ilə razılaşmaya əsasən, MV ARMMM Fonda hesabat üzrə qalan 280 min rublu ödəyib. Bu barədə məlumat istintaq orqanlarına təqdim olunub. İstintaq sonuna qədər MV ARMMM rəhbəri ev dustağı kimi qalacaq.

Xatırladaq ki, fevralın 21-də Qalib Ağayev “Rusiya dünyası” Fondunun müraciəti əsasında Moskva Şimal-Qərb dairəsi İstintaq Komitəsinin əməkdaşları və polis tərəfindən həbs edilərək paytaxtın Xoroşevski məhkəməsinə aparılıb. Məhkəmə Qalib Ağayevin martın 16-dək ev dustaqlığında qalacağı ilə bağlı hökm çıxarıb. Hazırda Qalib Ağayev evindədir.



# İcra başçısı qəzaya düşən maşınını “yoxa” çıxarmağa çalışır

## Alimpaşa Məmmədovun içərisində olduğu xidməti avtomobili ilə törədilən hadisə Prezident Administrasiyandan da gizlədilib

**Şəmkirin icra başçısı Alimpaşa Məmmədovun dəhşətli qəzanın iştirakçısına çevirilməsi haqda yazmışdıq. “Şəmkirin icra başçısı ölümdən döndü - gizlədilən bir avtoqəzanın ilginc təfərrüatları” (http://musavat.com/news/semkirin-icra-bascisi-olum-den-dondu-gizledilen-bir-avtoqezanin-ilginc-teferruatlari_427261.html) sərlövhəli yazıda A.Məmmədovun köməkçisi Mahir Əliyevin idarə etdiyi Şəmkir İcra Hakimiyyətinə məxsus Az 57 AA 001 dövlət nömrə nişanlı, qara rəngli “Tayota Land Cruiser” markalı avtomobillə qəza törətdiyi bildirilir. Yazıda qeyd olunur ki, qəza M.Əliyevin qəfil manevri və yüksək sürətlə qarşı yola çıxması üzündən baş verib. Nəticədə qarşı yolla hərəkətdə olan “Qaz-31" markalı avtomobilə çırpılıb. Nəticədə "Qaz - 31"in sürücüsü Həsən Əvkər oğlu Hüseynov ağır bədən xəsarəti alıb.**

Martın 24-də baş verən avtoqəza A.Məmmədovun göstərişi ilə gizlədilib. Aldığımız son məlumatda deyilir ki, bu haqda xəbər “Yeni Müsavat”ın son sayında dərc olunandan sonra icra başçısının qəza zamanı dağılmış duruma düşmüş maşınının gizlədilməsi üçün addımlar atılıb. Belə ki, nəqliyyat vasitəsini martın 24-də qəzadan sonra aparılan ünvandan çıxarıblar və Şəmkirin Dəllər qəsəbəsinə yollayıblar. Orada nəqliyyat vasitəsi Rafiq adlı ustanın həyətindədir.

Aldığımız digər məlumatda deyilir ki, Azərbaycanın bütün rayonlarının icra hakimiyyətləri Prezident Administrasiyasına hər gün rayonda baş verən qəza, yanğın, ölüm işi və s. ilə bağlı məlumat verirlər. Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədovun düşdüyü avtoqəza isə istisna olub. Prezident Administrasiyasına A.Məmmədovun iştirakçısına çevrildiyi qəza haqda məlumat verilməyibmiş.

❑ E.MƏMMƏDƏLİYEV



# Səfirlərlə müxalifət liderlərinin görüşləri niyə keçirilmir?

## Pənah Hüseyn təmasların azalmasının səbəbini açıqladı

**Azərbaycandakı diplomatik korpus təmsilçiləri, ABŞ və digər bəzi ölkələrin səfirlərinin müxalifət partiyalarının liderləri ilə görüşləri əvvəllər vaxtaşırı keçirilirdi. Son zamanlar isə bu cür görüşlərə demək olar ki, rast gəlinmir. Hansısa ümumi tədbirlərdəki görüşləri çıxsaq, sanki təmaslar tamamilə kəsilib.**

Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn bu barədə “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, son zamanlar diplomatik korpus təmsilçiləri ilə müxalifət liderlərinin görüşlərinə həqiqətən də əvvəllər olduğu kimi vaxtaşırı rast gəlinmir. Bu cür görüşlərdə təşəbbüs hər iki tərəfdən olmalıdır: “Bizim tərəfimizdən belə təşəbbüslər olmayıb. Qarşı tərəfdən də olmayıb”. Pənah Hüseyn bu cür görüşlərin son zamanlar nadir hallarda olmasının bir neçə səbəbinin ola biləcəyini dedi: “Son illərdə Azərbaycan iqtidarı diplomatik korpus və beynəlxalq təşkilat təmsilçilərinin müxalifətlə təmas qurmasına, əlaqələr yaratmasına həssas yanaşır və hətta təzyiq göstərir. Əvvəllər müşahidə olunan vaxtaşırı görüşlərin son zamanlar olmaması bununla bağlı ola bilər. Bütövlükdə ölkədə qapalılıq artıb. Bu, özünü sözügedən sahədə də göstərir. Yerli təşkilatların xarici təşkilatlar və səfirliklərlə əlaqələr qurmasına mümkün qədər mane olmaq xətti yürüdülür, görüşlərin qarşısını almağa çalışılır”.

**Bununla belə, AXP sədri vurğuladı ki, nə qədər maneələr olsa da diplomatik korpusla artıq ümumiyyətlə heç bir görüşün olmadığını söyləmək də düz olmazdı:** “Vaxtaşırı olmasa da hərdən görüşlər olur, görüşənlər var. Müəyyən siyasi təşkilatların rəhbərliyinin görüşləri haqqında arada informasiyalara rast gəlmək olur. Yəni diplomatik korpusla heç bir əlaqənin olmadığını söyləmək də olmaz.

Hazırda müəyyən təcridolunma meylləri müşahidə olunur. Bu da özünü keçirilən görüşlərin intensivliyinin azalmasında göstərir. Hesab edirəm ki, bu vəziyyət müəyyən bir keçid dövrüdür. Demokratiya, onun tərkib hissəsi olan insan hüquqları ilə bağlı ümumiyyətlə son dövrlərdə dünyada, əsasən də keçmiş SSRİ məkanında ciddi geriləmələr müşahidə olunur".

❑ E.SEYİDAĞA

**Ötən ilin aprelində Azərbaycan-Ermənistan arasındakı 4 günlük savaşda şəhid olan əsgərlərimizin ildönümləri yüksək səviyyədə keçirilir. Dövlət və ictimaiyyət səviyyəsində aprel şəhidləri yad edilir, məzarları başında anılırlar. Bütün ölkə boyu anım tədbirləri keçirilir.**

# Aprel şəhidlərimiz ölkə boyu yad edilir

## Üzeyir Cəfərov: "Belə tədbirlər il ərzində təşkil olunsun"




Müxalifət düşərgəsi də həyatlarını qurban verən şəhidlərimizi unutmur, onların ruhlarına ehtiram olaraq, Şəhidlər Xiyabanına ziyarətlər təşkil edir, şəhidlərimizin il mərasimlərində iştirak edirlər. Bunu sosial şəbəkələr və mətbuat səhifələrindən açıq şəkildə görmək olur.

Şəhid pilotlarımız mayor Urfan Vəlizadə və mayor Təbriz Musazadənin il mərasimi keçirilib.

Azvision.az xəbər verir ki, anım mərasimində şəhidlərin hərbçi yoldaşları, ailə üzvləri, yaxınları iştirak ediblər. Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı, general-leytenant Ramiz Tahirov və digər yüksək rütbəli zabitlər də şəhidlərin məzarını ziyarət edib, ailələrinə başsağlığı veriblər.

**Şəhid pilot Urfan Vəlizadənin yoldaşı Könül Vəlizadə bildirib ki, geridə qalan bir il onlar üçün olduqca çətin keçib:** "Urfansız çətindir. Onun üçün çox darıxıram".

Könül xanım Urfan Vəlizadənin məzarını ziyarətə gələn hər kəsə təşəkkür edib.

Şəhidin qardaşı Vidadi Vəlizadə Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkür edib.

U.Vəlizadənin qızı Zəhra Vəlizadə atasının məzarı başında skripkada ifa edib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbəri general Arzu Rəhimovun təşəbbüsü ilə Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı, Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi sədrinin birinci müavini Kamil Şirinov, moderator.az saytının baş redaktoru Zülfüqar Hüseynzadə xidmətin yüksək çinli zabitlərinin müşayəti ilə Xızıda və Xaçmazda olublar. Əvvəlcə Xızıda Novruzov Ravil Elman oğlunun il mərasimində iştirak edən adıçəkilən şəxslər şəhidin atasına başsağlığı veriblər. Mərasimdə rayon rəhbərliyi də iştirak edib.

Ardından Xaçmazda şəhid Mirzəyev Elvin Azadxan oğlunun il mərasimində də iştirak edən qonaqlar orada da şəhidimizin atasına başsağlığı verib, ruhuna dualar oxuyublar.

Həftə ərzində bu cür ziyarətlərin təşkil edilməsi qərara alınıb və bütün aprel şəhidlərinin il mərasimlərində ən yüksək səviyyədə iştirak edilməsi barədə xidmət rəhbərliyinin təşəbbüsü mərasim iştirakçıları tərəfindən məmnunluqla qarşılanıb.

**Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov iştirak etdiyi çoxsaylı tədbirlər barədə qəzetimizə bunları dedi:** "Şəhidlərimizin ildönümləri həm Müdafiə Nazirliyi, həm də aidiyyəti strukturlar tərəfindən yüksək səviyyədə keçirildi. General Rasim Əliyev və polkovniklər Abdulla Qurbani, Nazim Əhmədov, İslam Gəncəliyev və digərləri üzərlərinə düşən vəzifələri çox ləyaqətlə yerinə yetirdilər. Bugünlərdə çoxsaylı tədbirlər var. Aprelin 1-də Sumqayıtda Azərbaycanın qəhrəman oğlu, polkovnik-leytenant Yaqub Orucovun xatirəsinə həsr olunmuş böyük tədbir keçirildi, Sumqayıt İcra Hakimiyyətinin və müvafiq strukturların iştirakı ilə. Şəhidin ailə üzvləri, o cümlədən yaxın dostları bu tədbirdə iştirak etdilər. Aprelin 3-də də aprel şəhidləri ilə bağlı böyük tədbir keçirildi. Eyni zamanda həmin gün aprel şəhidləri ilə bağlı tanınmış politoloq Elxan Şahinoğlunun yazdığı "Aprel atəş(kəs)i" kitabının təqdimatında oldum. Aprelin 5-də Avropa Liseyində şəhidlərimizin anım tədbiri keçiriləcək. Bir sözlə, çoxsaylı tədbirlər keçirilir. Hesab edirəm ki, ölkə başçısının da dediyi kimi, bir il öncəki aprel hadisələri Azərbaycanın şanlı tarixi kimi dərsliklərə salınmalıdır. Yaxşı olardı ki, belə tədbirlər il ərzində təşkil olunsun. Yaxınlarda bir təklif verdim ki, bir mərkəzdən idarə olunan tədbirlər keçirilsin. Çünki dövlət strukturları üzərlərinə düşəni onsuz da edirlər. Hamı istəyir ki, qəhrəmanlarımızı görsün. Şəhid Çingiz Qurbanovla bağlı dövlət səviyyəsində böyük tədbirlər keçiriləndən sonra bunun davamı gəldi. Bu, gənclər üçün böyük stimul oldu. 90-cı illərdə mən döyüşlərdə olanda mədəniyyət və incəsənət adamları daha aktiv idilər, tez-tez hərbi hissələrə gedirdilər. Sanki indi gözləmə mövqeyi seçiblər. Belə olmamalıdır. Aprel şəhidləri və digər qəhrəman övladlarımızla bağlı maarifləndirmə işləri aparılmalıdır. Onlar gələcək nəsillərimizin yaddaşına həkk olunmalıdır".

❑ **Cavanşir ABBASLI**



## Zakir Fərəcov İsveçrə şirkətlərinin rəhbərləri ilə görüşüb

### Əcnəbi iş adamları ilə investisiya imkanları müzakirə olunub

**İsveçrənin "FRIKE GROUP" şirkətinin rəhbəri Andre Keller, kosmetika və yuyucu vasitələr cəmiyyətinin direktoru Berin Klötta Sumqayıt şəhərində səfərdə olublar. Səfər çərçivəsində qonaqları Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov qəbul edib.**

Sumqayitxeber.com xəbər verir ki, qonaqlara Sumqayıt şəhəri haqqında ətraflı məlumat verən şəhər rəhbəri bildirib ki, hazırda Sumqayıt şəhərinin 67 yaşı var. Gənclik şəhəri olmasına baxmayaraq burada bir zamanlar iri kimya sənayeləri mövcud idi.

Lakin istismar müddətini başa vuran bu müəssisələrin yerində hazırda yeni sənaye zonaları inşa olunur. Bu da şəhərin iqtisadiyyatına güclü təkan verməklə yanaşı, işsizlik problemini də aradan qaldırır.

Qeyd olunub ki, hazırda Sumqayıt şəhərində iqtisadiyyatın müxtəlif istiqamətlərində, o cümlədən kimya sənayesi sahəsində investisiyalar üçün böyük potensial mövcuddur. Eyni zamanda investorlar üçün cəlbedici güzəştlər vardır.

Qonaqlar şəhər rəhbərinə səmimi qəbula görə təşəkkürlərini bildiriblər və şəhərdə son dövrlər əldə olunan uğurları görməkdən məmnun olduqlarını qeyd ediblər. İsveçrə ilə Azərbaycanın iqtisadiyyatın müxtəlif sahələrində aktiv əməkdaşlığı yüksək qiymətləndirərək münasibətlərin daha da möhkəmləndirilməsinin, qarşılıqlı investisiyaların vacib olduğunu vurğulayıblar.

Sonda qonaqlar şəhərdə fəaliyyət göstərən müəssisələrlə yaxından tanış olublar.

# Sankt-Peterburqda törədilən dəhşətli terrorun pərdəarxası

### Putin Lukaşenko ilə görüşən ərəfədə Rusiya prezidentinin olduğu şəhər qana boyandı - şübhələr İŞİD-ə yönəlib









**Aprelin 3-də günorta saatlarında Rusiyanın Sankt-Peterburq şəhərində metroda terror aktı törədilib. Musavat.com-un verdiyi xəbərə görə, partlayış "Sennaya ploşad" və "Texnologiçeskiy institut" stansiyalarında baş verib.**

Məlumatlara görə, partlayış içi öldürücü maddələrlə doldurulmuş əldəqayırma qurğu vasitəsilə törədilib. Partlayışdan sonra vaqon iki yerə bölünüb.

Həmin ərəfədə digər stansiyada da şübhəli əşyanın tapıldığı deyilir.

Hadisə şahidlərinin dediyinə görə, stansiyalarda tüstü əmələ gəlib və insanlar qaçmağa başlayıb.

Partlayışdan dərhal sonra "Ploşad vosstaniya", "Sadovaya", "Nevskiy prospekt" və "Texnologiçeskiy institut" stansiyaları bağlanıb.

Sankt-Peterburq qubernatoru Georgi Poltavçenko bildirib ki, metroda partlayış nəticəsində 10 nəfər ölüb.

Rəsmi xəbərə görə, partlayışda 10 adam ölüb, 50-dən çox adam yaralanıb.

"Çernaya reçka" stansiyası da şübhəli əşyanın aşkar olunmasına görə bağlanıb. Metronun bütün mərkəzi stansiyalarında insanlar evakuasiya edilib.

Sankt-Peterburq metrosunun "Ploşşad Vosstaniya" stansiyasında da partlayıcı qurğu tapılıb.

APA-nın xəbərinə görə, bu barədə "Fontanka" saytı xəbər yayıb. Partlayıcı qurğu işə düşməyib, bomba zərərsizləşdirilib.

Rusiya Baş Prokurorluğu hadisəni rəsmən terror aktı adlandırıb.

Terrorla əlaqədar şəhər administrasiyası aprelin 4-dən etibarən Sankt-Peterburqda 3 günlük matəm elan edib.

Maraqlı məqam odur ki, partlayış baş verməzdən bir neçə saat əvvəl Rusiya prezidenti Vladimir Putin Belarus prezidenti Aleksandr Lukaşenko ilə rəsmi görüş keçirmək üçün Sankt-Peterburqa gəlib.

İddialar var ki, partlayış Rusiya prezidentinə bir mesaj olub. Buna səbəb kimi isə Rusiyanın xarici siyasət kursu göstərilir.

Məsələ ondadır ki, Rusiya bir müddətdir Suriyanın şimalında İŞİD terror şəbəkəsinə qarşı hərbi əməliyyatlar həyata keçirir. Bu səbəbdən İŞİD Rusiyanı dəfələrlə hədələyib. Həmçinin Lukaşenko ilə görüşdə də İŞİD-lə mübarizə məsələsinin müzakirə olunması nəzərədə tutulmuşdu. Buna görə də Sankt-Peterburqda baş verən terror aktında əsas şübhəli İŞİD terror qruplaşmasıdır...

Rusiya Federal Mühafizə Xidməti prezident Vladimir Putinə Peterburqda partlayışın olduğu stansiyaya getməyə izn verməyib.

Axar.az xəbər verir ki, bu barədə informasiyanı "Kommersant FM" yayıb. Radio Mühafizə Xidmətinin hadisə yerindəki binaların, avtomobillərin və vətəndaşların yoxlanılmaması bəhanəsi ilə Putinin hadisə yerinə getməsinin qarşısını aldığını bildirib.

***

"Partlayış yeri kimi Sankt-Peterburq şəhəri təsadüfən seçilməyib. Rusiya prezidenti hazırda bu şəhərdədir".

APA-nın məlumatına görə, bunu Rusiya Federasiya Şurasının Müdafiə və təhlükəsizlik məsələləri komitəsinin sədri Viktor Ozerov bildirib. O deyib ki, V. Putinin iştirakı ilə şəhərdə Ümumrusiya Xalq Cəbhəsi təşkilatının mediaforumu keçiriləcək: "Şəhərdə çoxlu jurnalistlər var. Ona görə də hesab edirəm ki, partlayışın yeri kimi Peterburq təsadüfi seçilməyib".

V.Ozerov müvafiq orqanların təhlükəsizlik tədbirləri ilə bağlı öz işlərini yetərincə görmədiklərini də vurğulayıb.

***

Vladimir Putin isə hadisə ilə bağlı kiçik açıqlamasında deyib ki, olaya görə məişət hadisəsindən tutmuş, terakta qədər bütün versiyalar araşdırılacaq.

Sankt-Peterburq metrosunda partlayış törətdiyi ehtimal edilən terrorçunun fotosu yayılıb.

Lenta.ru saytının verdiyi xəbərə görə, həmin şəxsin görüntüləri videonəzarəti həyata keçirən kameralardan götürülüb.

Hadisə şahidlərinin söylədiyinə görə, bu şəxs vaqonda özü ilə bərabər gətirdiyi bel çantasını yerə qoyub və dərhal oranı tərk edib. Həmin adam qara rəngdə paltar geyinib və saqqalda olub.

***

Hadisə yerindən əldə edilən ilkin məlumatlara görə, Sankt-Peterburqda metro stansiyalarındakı partlayışlar nəticəsində ölən və yaralananlar arasında azərbaycanlı yoxdur.

Bunu report-a açıqlamasında Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Sultan Qasımov deyib.

***

Sankt-Peterburqda baş verən terror Bakıda da narahatlıqla qarşılanıb. Bununla bağlı metropoliten rəhbərliyi açıqlama verib.

"Bakı metrosunda təhlükəsizlik məsələləri ilə bağlı sərnişinlərin narahat edəcək heç nə yoxdur".

**Bunu report-a açıqlamasında "Bakı Metropoliteni" QSC-nin Mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nəsimi Paşayev bildirib:** "Bakı metrosunda təhlükəsizlik məsələlərinə birbaşa Daxili İşlər Nazirliyi (polis) və təhlükəsizlik orqanları nəzarət edirlər. Onlar hər zamankı kimi təhlükəsizliyi yüksək səviyyədə təmin edirlər. Sərnişinlərin narahat olacağı heç nə yoxdur".

❑ **Musavat.com**

# Erməni katolikosları Şeyxin ordumuza yardımlarını yada saldı

**Bütün ermənilərin katolikosu II Qaragün və katolikos I Aram Dağlıq Qarabağa qanunsuz səfərə gediblər. Katolikoslar səfər zamanı hər biri ayrılıqda erməni ordusuna yarım milyon dollar pul veriblər.**

Səfərlə bağlı yayılan xəbərlərdə deyilir ki, onların orduya verdikləri pullar kilsəyə verilən ianələr hesabına formalaşıb. Bu xəbər yayılandan sonra sosial və populyar mediada Qafqaz Müsəlmanları İdarəsinin başçısı, Şeyxülislam Hacı Allahşükür Paşazadənin Azərbaycan ordusuna yardımlar edib-etməməsi müzakirə mövzusuna çevirilib.

Söz yox ki, bu gün Azərbaycan ordusu kənar maliyyələşmənin ümidinə qalmayıb ki, yığılan ianələr hesabına köməkliyə ehtiyacı olsun. Hazırda ordumuzun maddi-texniki baxımdan təminatı dövlət büdcəsi hesabına artıqlaması ilə qarşılanır. Dəfələrlə vurğulanıb ki, Silahlı Qüvvələrimizin büdcəsi bütövlükdə Ermənistanın büdcəsindən böyükdür.

Bununla belə, Azərbaycan müstəqillik qazanandan sonra yenicə formalaşan Azərbaycan Milli Ordusuna dəstək üçün Müdafiə Fondu fəaliyyətdə olub. Həmin fonda vətəndaşlar, ictimai birliklər, iş adamları, cəmiyyətin ən müxtəlif kateqoriyalarının təmsilçiləri ianələr veriblər. Bu şəxslər sırasında Allahşükür Paşazadə olubmu?



**Pənah Hüseyn:** "O dövr belə idi ki, hər kəs orduya əlindən gələn köməkliyi edirdi"



**Etibar Məmmədov:** "Allahşükür Paşazadə də orduya yardımlar etmişdi"

**Azərbaycanın o dövrdə - ordumuz yeni formalaşan illərdə baş nazir postunu tutmuş Pənah Hüseyn sorğumuza cavab olaraq dedi ki, Müdafiə Fonduna əksər vətəndaşlar yardımlar edib:** "Bu sırada Qafqaz Müsəlmanları İdarəsinin, ayrılıqda sədrinin də olub-olmadığını bilmirəm. Amma o dövr belə idi ki, hər kəs orduya əlindən gələn köməkliyi edirdi".

**Azərbaycan Milli İstiqlal Partiyasının lideri Etibar Məmmədov bildirdi ki, Allahşükür Paşazadə həmin dövrdə orduya cəmiyyətdən gələn dəstəkdən kənarda olmayıb:** "Allahşükür Paşazadə də orduya yardımlar etmişdi. Məbləğ dəqiq yadımda deyil. Şeyxülislam həmin proseslərdən kənarda deyildi. O dövr belə idi ki, hər kəs orduya kömək etmək istəyirdi, orduya dəstək kütləvi idi. Çox zaman yardım, dəstək üçün müraciətə də ehtiyac yox idi. Hər kəs öz təşəbbüsü ilə orduya kömək edirdi. Kimin əlində nə imkan vardısa, nəyə gücü çatırdısa, o şəkildə də köməklik edirdi".

**O illərdə daxili işlər naziri olmuş İsgəndər Həmidov da təsdiqləyir ki, Azərbaycan ordusu yeni yaranan illərdə cəmiyyətdən yardımlar edilib:** "Allahşükür Paşazadənin cəmiyyətin bir çox üzvləri kimi orduya yardım etməsi təbii idi. Amma konkret nəsə deyə bilmərəm".

Qeyd edək ki, Şeyxülislam dünyanın ən nüfuzlu 500 müsəlman şəxsiyyətindən sayılır. Allahşükür Paşazadə hazırkı postuna 1980-ci ildə təyin olunub. Ötən əsrin 90-cı illərində yaradılan Müdafiə Fondu 2002-ci ildə Silahlı Qüvvələrə Yardım Fondu adı ilə fəaliyyətini davam etdirib. Silahlı Qüvvələrə Yardım Fonduna 2016-cı il mayın 1-nə qədər 73 milyon 95 min 369 manat, 212 min 373 dollar, 2 min 993 avro və 5 min rubl daxil olub. 2002-ci ildən bu günə qədər o vəsaitdən 1 qəpik də olsun, xərclənməyib. Sadəcə, pul ehtiyatı kimi yığılır.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Yeni siyasi məhbus siyahısı yenə narazılıq yaratdı



**Əvəz Zeynallı:** "Hüquq müdafiəçilərinin fikirləri arasında fərqlər ola bilər"



**Novella Cəfəroğlu:** "Görək o 162 nəfərdən hansını azad etdirəcəklər?"

**Siyasi Məhbusların Müdafiə Mərkəzinin (SMMM) aprelin 1-də elan etdiyi 162 nəfərlik yeni siyasi məhbus siyahısı ətrafında yaranan narazılıq səngimək bilmir. Əksər hüquq müdafiə təşkilatları, siyasi qurumlar, hüquq müdafiəçiləri siyahının əleyhinə çıxış edirlər.**

Onlar hesab edirlər ki, ölkədə hazırda bu sayda siyasi fəal həbsdə deyil, siyahının xarici təşkilatlardan yüksək məbləğdə qrantlar almaq üçün qəsdən şişirdildiyini iddia edirlər. Arqumentlərdən biri də ondan ibarətdir ki, siyahılar nə qədər geniş olarsa, bir o qədər qanuni siyasi məhbusların azadlığa buraxılmaları ləngiyir. Hakimiyyətin bu cür siyahılara sərt münasibət bəslədiyi vurğulanır. Siyahını tərtib edənlər isə Nardaran hadisələrində də həbs edilənlərin siyasi məhbus olduğunu bildirir, məhz bu səbəbdən siyahının uzun olduğunu söyləyirlər. "Ölkədə siyasi məhbus yoxdur" deyən hakimiyyət tərəfindən də siyahıya sərt təpkilər gəlməkdədir.

**SMMM üzvü, "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı "Yeni Müsavat"a açıqlamasında tənqidlərə tuş gəlmələrinə bu cür münasibət sərgilədi:** "Burada əsas söhbət dindarlardan gedir. Onların hamısı siyasi məhbusdur, ya yox? Nardaran hadisələrində həbs edilənləri nəzərdə tuturam. Biz hesab edirik ki, Tale Bağırzadə başda olmaqla, Nardaran hadisələrində həbs edilənlərin hər biri siyasi məhbusdur. Hətta mən onları vicdan məhbusu hesab edirəm. Çünki ortada heç bir cinayət yoxdur. Amma olmayan cinayətin üstündə çoxsaylı insan azadlığını itirib. Bu "şər əməliyyatı"nı dövlət orqanları qurublar. Burada bizim fikirlərlə bəzi hüquq müdafiəçilərinin fikirləri arasında fərqlər ola bilər. Bu cür siyahıların siyasi məhbusların azad olunmasına mane olduğuna gəlincə, açığı, fərqli düşünürəm. Çünki illər əvvəldən müxtəlif siyahılar olub. Kifayət qədər tanınmış siyasi məhbuslar olublar. Amma bunların heç birinin hakimiyyətin verəcəyi əfv fərmanında əhəmiyyəti yoxdur. Əfv siyasətinə siyahıların heç bir dəxli yoxdur. Çünki hakimiyyət hesab edir ki, ölkədə siyasi məhbus yoxdur. Mən düşünürəm ki, Azərbaycanda siyasi məhbusların sayı yüzlərlə deyil, minlərlədir. 162 nəfərlik siyahı mənim üçün natamam siyahıdır. Çünki həbsxananı görmüşəm. Orada məhbusların necə həbs olunduqlarını görmüşəm. Həbsxana gündəliyimdə yüzlərlə insanın taleyi var. Onların hamısı siyasi məhbusdur. Hər zaman demişəm, yenə də deyirəm, ölkədə nə qədər məhbus varsa, bir o qədər də siyasi məhbus var".

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu bildirdi ki, həqiqi siyasi məhbusların azadlığı üçün işıq yananda bu cür böyük siyahılar ortaya atılır:** "Çalışırlar ki, siyasi məhbus olanların işlərini çətinləşdirsinlər. Olsun 162 nəfər, görək o 162 nəfərdən hansını azad etdirəcəklər? Boş-boş siyahılardır. Biz dindarların işi ilə ayrı maraqlanırıq. Onları biz də müdafiə edirik. Amma siyasi məhbuslarla dindarları bir yerə salmaq olmaz. Dindarların işi bizim də nəzarətimizdədir".

❑ **Cavanşir ABBASLI**



# Paşazadələrin şərikinə 9 il həbs cəzası verildi

## Müğdət Həşimov: "Cinayət işi 5 cild şər-böhtandan ibarətdir"

**Paşazadələrin şəriki olmuş Müğdət Həşimovun cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Novruz Kərimovun sədrliyi ilə keçirilən prosesdə M.Həşimov son sözlə çıxış edib.1 il 7 aydan çoxdur qanunsuz olaraq həbsdə saxlanıldığını deyən Həşimov şərlənərək həbs edildiyini iddia edib.**

"Cinayət işi 5 cilddən və şər-böhtandan ibarətdir. Məndən şantajla klinikanı boşaltmağı tələb ediblər. Lakin 3 ay klinikanı boşaltmayıb, danışıqlar aparmışam ki, klinikanın fəaliyyətini bərpa edim. Lakin Ramazan Zeynalov klinikanı boşaltmağımı tələb edərək məni hədələyib. Əsas məsələ isə budur ki, Ramazan Zeynalovun bu işdə zərərçəkmiş kimi tanınması absurddur. O deyir ki, guya klinikadan avadanlıqları çıxararaq satmışam. Amma Ramazan Zeynalovun icazəsi olmadan oradan çöp belə götürmək olmaz. Necə olur ki, iki həftə ərzində oradan avadanlıqları maşınlara yükləyərək aparmışam? Hacı Mazan bunları görmürdü? Bizim orada rentgen aparatımız var. Məhkəmə qərarı var ki, oradan rentgen aparatını götürək, amma Ramazan Zeynalov məhkəmə qərarını icra etmir, rentgen aparatını götürməyə gedənləri qovur" deyə, Müğdət Həşimov son sözünə əlavə edərkən deyib.



Cavanşir Paşazadə

**Təqdirləndirilən onu da qeyd edib ki, illərdir qurduğu biznesi idarə etmək əvəzinə, hüquq-mühafizə orqanlarında sifarişli şikayətlərlə bağlı izahat verməyə məcbur olub.** "Mənim barəmdə "Banditzm"ə şikayət olundu. İzahat verəndən sonra işin mülki iş olduğu müəyyən edildi, şikayətin icraatına xitam verildi. Bundan sonra prokurorluğa şikayət edildi. Ümid edirdim ki, orada barəmdə olan şikayətə xitam veriləcək. Amma əksinə oldu, barəmdə qanunsuz cinayət işi başlandı. Ramazan Zeynalovun səhvini başa düşəcəyinə ümid edirdim. Çünki banklara olan borcları ödədim. Ramazan Zeynalov məni otağına çağırdı. Əlini Qurana basdı ki, 11 günə işə başlayacam, bununla bağlı Cavanşir Paşazadə ilə danışdığını dedi. Amma 11 gündən sonra həbs edildim" deyən, Müğdət Həşimov baş verənlərlə bağlı deputat Cavanşir Paşazadəyə məktub göndərdiyini də deyib. Amma məktub açılmamış geri qayıdıb.

"Klinikadan evinə çörək aparan 100-ə yaxın insanı işsiz qoydular. Ramazan Zeynalov dəfələrlə bəyan edib ki, klinikanı özü bağlatdırıb, səbəb isə avadanlıqların guya köhnə olması olub. Avadanlıqların köhnə olmasının Ramazan Zeynalova aidiyyəti olmamalıdır. Çünki həmin klinikaya lisenziya və mebel almışam. Həmçinin qeyd edim ki, Ramazan Zeynalov cəza istənilməmişdən əvvəl bir məclisdə deyib ki, prokuror Müğdət Həşimova 11 il cəza istəyəcək. Elə də oldu".

Daha sonra hakimlər hökm qəbul etmək üçün müşavirəyə gediblər. Müşavirədən qayıdan məhkəmə hökmü elan edib. Hökmə əsasən, M.Həşimov 9 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, M.Həşimov 2015-ci ildə Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə) maddəsi ilə təqsirli bilinərək həbs olunub. Sonradan onun barəsində 178.3.2 (dələduzluq) və 213.1 (vergidən yayınma) maddələr ilə də ittiham irəli sürülüb.

Tərəflər arasında şərikliyin şərtinə görə Bank "VTB"dən 700 min manat götürülüb. Həmin pulun banka qaytarılması isə 2018-ci ilə qədər M.Həşimovun öhdəliyində olub.

M.Həşimov klinikadan qazandığı pulla həmin borcu ödəməli imiş. Bankın pulu ödənilib bitdikdən sonra əldə olunan qazanc Cavanşir Paşazadə ilə M.Həşimov arasında bölünməli imiş.

M.Həşimov deputat C.Paşazadənin himayəsində olan "Aygün-C" MMC-nin təsisçiləri ilə 2012-ci ilin 6 dekabrında rəsmi qaydada "Birgə fəaliyyət haqda" müqavilə bağlayıb. Müqavilənin şərtlərinə görə onunla iş birliyində Allahşükür Paşazadənin həyat yoldaşı və oğlu, Cavanşir Paşazadənin qızı və kürəkəni olub.

❑ **İlkin MURADOV**

# Ziya Məmmədov ABŞ qəzetlərini "böhtançı" adlandırdı

## Amerikalı senatorların "Trump Organization" təşkilatının Azərbaycandakı fəaliyyətinə dair iddiaları sabiq nazirin etirazına səbəb olub

**Sabiq nəqliyyat naziri Ziya Məmmədov ABŞ Senatının bir qrup aparıcı üzvünün prezident Donald Trampın Azərbaycandakı biznes fəaliyyətinin antikorrupsiya və sanksiyalar haqqında qanunları pozub-pozmadığının araşdırılması ilə bağlı müraciətlərinə münasibət bildirib. Yada salaq ki, amerikalı senatorlar müraciətlərində "Trump Organization" təşkilatının Azərbaycanda Məmmədovlar ailəsi ilə müştərək tikdiyi "Trump Tower" göydələninin hansı hesabdan tikilməsinin araşdırılmasını da istəyiblər. ABŞ mətbuatında da bu haqda yazılar dərc olunub.**

Ziya Məmmədovla əlaqə saxlayan "Yeni Müsavat" əməkdaşı sabiq nazirdən həmin məsələdən məlumatlı olub-olmamasını soruşub. Z.Məmmədov ABŞ mətbuatında yazılanları şər-böhtan adlandırmaqla dəstəyi asıb: "Onlar böhtanla məşğuldurlar".



Qeyd edək ki, senatorlar Trampın biznes fəaliyyəti ilə əlaqəli federal təhqiqatın keçirilməsinə çağırıblar. Onların fikrincə, sözügedən biznes, "çirkli pulların yuyulması" və İranın İslam Keşikçiləri Korpusuna (İİKK) bağlı başqa qanunsuz fəaliyyətlər üçün vasitə rolunu oynaya bilərdi. Senatorlar Sherrod Brovn, Ben Cardin və Dianne Feinstein bu barədə narahatlıqlarını ABŞ maliyyə naziri Steven Mnuchin, baş prokuror Jeff Sessions və FTB-nin direktoru James Comeyə yazdıqları məktubda açıqlayıblar. Brovn, Cardin və Feinstein ABŞ Senatının Bank, Evtikmə və Şəhərsalma, Xarici Əlaqələr və Ədliyyə komitələrinin ən yüksək vəzifəli üzvləridir. ABŞ Konqresinin yaydığı məlumatda isə deyilir ki, senatorların narahatlığı 2017-ci il martın 13-də "New Yorker" jurnalında dərc edilmiş "Donald Trampın ən pis sazişi" adlı təhqiqat məqaləsində yazılanlardan qaynaqlanır. Bu məqalədə söhbət "Tramp Organization" təşkilatının Azərbaycanda Məmmədovlar ailəsi ilə müştərək tikdiyi "Tramp Tower" göydələnindən gedir. Məqalədə yazılanlara görə, Məmmədovlar İran İnqilab Keşikçiləri Korpusu (İİKK) ilə bağlara malikdirlər. İİKK İranda əhəmiyyətli iqtisadi və siyasi qüdrətə malik seçmə hərbi qüvvədir. Sözügedən məktubda senatorlar yazırlar ki, məqalə "Trump Organization" təşkilatının Xaricdə Korrupsiya Əməlləri Qanununu (Foreign Corrupt Practices Act) pozub-pozmadığına dair suallar yaradıb. Tramp Bakı biznesindən çıxdığını elan edəndən sonra onun adını daşıyan lövhə götürülüb. Bu məqalədən bəlli olur ki, tikinti işində iştirak edən qurumlardan biri İİKK-nın maraqlarını təmsil edən qondarma təşkilat ola bilərdi. Məqalədən bunu da başa düşmək olar ki, İİKK "Trump Organization" təşkilatına edilmiş müəyyən ödənişlərin əsas mənbəyi ola bilərdi. Əgər bu baş veribsə, onda "Trump Organization" təşkilatı ABŞ sanksiyalar qanununu birbaşa pozmuş sayılır. Keçmiş nəqliyyat naziri Ziya Məmmədov və onun oğlu Anar Məmmədov bu iddialarla bağlı media qurumlarının sorğularına cavab verməyiblər. Donald Tramp prezident seçkisi kampaniyası dövründə Azərbaycandakı biznes sazişindən çıxdığını elan edib. Bakıda tikilmiş göydələndən "Trump" lövhəsi çıxarılıb. Ziya Məmmədov ötən ay nəqliyyat naziri vəzifəsindən azad edilib.

❑ **E.HÜSEYNOV**

# 27 partiya MSK-ya maliyyə hesabatı təqdim etməyib

## Natiq Məmmədov: "Söz yox ki, sanksiyalar da qanunvericilikdə nəzərdə tutulub, amma..."

**Azərbaycan Mərkəzi Seçki Komissiyasına (MSK) 2016-cı il üzrə maliyyə hesabatını təqdim etməyən partiyaların sayı məlum olub. MSK sədrinin müavini Natiq Məmmədov "Yeni Müsavat"a açıqlamasında da deyib ki, aprelin 1-dək dövlət qeydiyyatına alınan 55 siyasi partiyadan 27-si maliyyə hesabatı təqdim etməyib. O bildirib ki, siyasi partiyalarla bağlı məsələ araşdırılır.**



Qanunvericiliyə əsasən, siyasi partiyalar illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə hər il aprel ayının 1-dən gec olmayaraq MSK-ya təqdim etməlidirlər. Mərkəzi Seçki Komissiyası bu müddətdə illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə təqdim etməyən siyasi partiyalar barədə Ədliyyə Nazirliyinə məlumat verməlidir.

Bəs partiyaların maliyyə hesabatı təqdim etməməsinə MSK-nın münasibəti necədir, hesabat təqdim etməyənlərə hansısa cəzalar tətbiq ediləcək?

**MSK sədrinin müavini Natiq Məmmədov bildirdi ki, əslində partiyaların hesabatlılığında müsbət tendensiya, irəliləyiş diqqəti cəlb edir. Ona görə də demək olmaz ki, partiyalar maliyyə hesabatı verməkdən imtina edirlər:** "Düzdür, aprelin 1-nə qədər vaxt verilmişdi. Amma nəzərə alırıq ki, aprelin 1-dən öncə 10 günə yaxın müddətdə bayramla əlaqədar iş günü olmayıb. Yəqin ki, bayram tətili də hesabatların təqdim edilməsində öz təsirini göstərib. Ona görə də partiyalardan sənədlər daxil olmaqdadır.

O ki qaldı maliyyə hesabatını təqdim etməyənlərlə bağlı tədbirlərə, bizim əsas məqsədimiz mümkün qədər qarşılıqlı əməkdaşlıq şəraitində qanunvericiliyin bu tələbinin siyasi partiyalara aşılanmasında əlimizdən gələni etməkdir. Söz yox ki, sanksiyalar da qanunvericilikdə nəzərdə tutulub, amma indiyə qədər apardığımız fəaliyyətin doğruluğu özünü göstərir. Çünki artıq partiyaların həm hesabata münasibətləri, həm də hesabatın keyfiyyətinə münasibətləri kifayət qədər yaxşılaşıb.

Ümid edirəm ki, görüləcək tədbirləri siz də digər KİV kimi biləcəksiniz".

Qeyd edək ki, artıq siyasi partiyalar üç ildir maliyyə hesabatını MSK-ya təqdim edirlər. Əvvəlki illərdə partiyaların bəziləri maliyyə hesabatını təqdim etməsələr də, MSK indiyədək Ədliyyə Nazirliyinə müraciət etməyib. MSK-nın bu dəfə necə davranacağı isə sədr müavininin bizə dediklərindən də belə görünür ki, hələ məlum deyil.

**YAP-çı deputat Siyavuş Novruzov isə bir müddət əvvəl Milli Məclisdə çıxışında "Siyasi partiyalar haqqında" Qanuna dəyişiklik edilməsi təklifini vermişdi. O təklifini belə əsaslandırmışdı ki, siyasi partiyaların MSK-ya hesabat verməsini nəzərdə tutan qanun qəbul edilsə də buna əməl olunmur. Ona görə də əgər kimsə öz gəlirləri barədə hesabat vermirsə, onunla bağlı tədbir görülməlidir:** "Baxmayaraq ki, bir sıra partiyaların kifayət qədər cangüdənləri, avtomobilləri var, təbii ki, bunlar hava ilə dolanmırlar. "Siyasi partiyalar haqqında" Qanuna dəyişiklik edildi ki, siyasi partiyalar maliyyə hesabatını Mərkəzi Seçki Komissiyasına təqdim etsinlər. Lakin bir sıra siyasi partiyalar Mərkəzi Seçki Komissiyasına hesabat vermirlər. Həmin partiyaların kifayət qədər cangüdənləri, işçiləri var, ancaq hesabat vermirlər. Qanunvericilikdə elə normalar tətbiq etməliyik ki, bunun qarşısını alaq".

Ölkədə dövlət qeydiyyatından keçən 55 partiyadan 11-i parlamentdə təmsil olunur və dövlət büdcəsindən maliyyələşir. Qalanlarının təxminən 15-ə yaxınının müəyyən fəaliyyəti hiss olunur. Təxminən yarısının isə heç bir fəaliyyəti yoxdur. Siyasi partiyaların əksəriyyəti maliyyə durumlarının acınacaqlı olduğundan şikayətlənirlər. Qanunda isə iki il fəaliyyəti olmayan partiyanın qeydiyyatının ləğvi tələbi də əksini tapır.

❑ **Etibar SEYİDAĞA**

# Şəhid məzarı üstdə skripkaçı qız



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Bu günlər əziz aprel şəhidlərimizin il mərasimləri qeyd olunur. Bu mərasimlərdən birində balaca Zəhranın öz pilot şəhid atası - Urfan Vəlizadənin məzarı üstündə skripka çalması diqqət çəkdi. Keşkə, bu təsirli mənzərə haqda yaxşı bir əsər, ssenari yazan tapılaydı, sonra da həmin ssenari əsasında istedadlı rejissorlardan biri gözəl, tərbiyəvi bir film ərsəyə gətirəydi.**

İstənilən şəhidimizin həyatı, döyüş yolu ilə bağlı çoxlu belə bənzər detallar var. Onları tapıb da bədiiləşdirmək, ekranlaşdırmaq mümkündür, yetər ki, buna səmimi istək olsun. Mənəvi qidaya tələbat isə həmişə var - müharibə vəziyyətində yaşayıb-yaşamamağımızdan asılı olmayaraq.

Bu gün orta məktəb dərsliklərində şəhidlərimiz və onların igidlikləri haqda yazılmasına, deyilməsinə şübhəsiz ki, ən çox ehtiyac duyulur. Aprel qəhrəmanlarının tanıdılmasına isə xüsusi ehtiyac var. Millət öz övladlarını, gələcək nəsil öz şanlı qəhrəmanlarını yaxından tanımalıdır, buna borcludur da...

***

Şəhidlik o qədər müqəddəs zirvədir ki, hətta ilahiyyatçılara görə, şəhidin mübarək cəsədini yuyub qüsullamağa da ehtiyac duyulmur, çünki elə əynindəki qanlı paltarla birgə pak sayılır. Əlbəttə ki, şəhidlərə fərq qoyulmaz. Allah dərgahında onların hamısının dərəcəsi, məqamı eynidir. Ancaq etiraf edək ki, aprel şəhidlərinin əziz xatirəsi xalqımızdan ötrü məxsusidir.

Nədən ki, məhz aprel blitsi-hərbi qələbəsi ilə biz uzun illərin "məğlubiyyət sindromu"ndan, özünə inamsızlıq sindromundan, nəhayət ki, çıxa bildik, ermənilərin isə məğlubedilməzlik mifini dağıtdıq, onu öz "qələbəsi"nə peşman elədik. Torpaqlarımızı hərb yolu ilə azad etməyə qadir olduğumuza əminlik hasil elədik və bunu bütün dünyaya əyani göstərdik.

Aprel şəhidləri millətə uzaqda olmayan böyük qələbəni dadızdırdı. Məhz aprel zəfərindən sonra, artıq bir ildir ki, düşmən səksəkə içində Azərbaycanın istənilən an öz ərazilərini azad eləmək üçün böyük savaşa başlayacağı əndişəsi ilə yaşayır. Bu - aprel mini-zəfərinin başqa bir psixoloji qazancıdır.

***

Aprel ayı Azərbaycan üçün az qala 100 ildir 28 aprel rus işğalı ili anılırdı. Bundan sonra isə həm də artıq aprel mini-zəfəri ilə anılacaq. Aprel şəhidlərinin bizə bəxş elədiyi bir müsbət hiss də qoy bu olsun - onlar bu ayı bizim üçün hüznlü olmaqdan çıxardılar. Aprelin "üzünü ağartdılar" - şəhidlik zirvəsinə yüksəlməklə.

Ən əsası, məhz şəhidlərin sayəsində üstündə gəzdiyimiz torpaq Vətən adlanır - "Torpaq üstündə ölən varsa, Vətəndir" deyilmirmi? "Bütün canlar ölümü dadacaq". Bunu isə müqəddəs kitabımız buyurur. Hamımız öləriyik, gec-tezliyi var. Ancaq nə xoş o kəslərə ki, gənc yaşlarında tərəddüdsüz ölüm şərbətini içib şəhidliyə qovuşur, ölümləri ilə Vətəni yaşadırlar, onun dəyərinə dəyər qatırlar.

Əlbəttə ki, heç bir normal insan müharibə arzulamır. Arzulamaz. Hamı sülh yolla problemin həllini istəyir. Heç kəs istəməz ki, uşaqlar atasız, analar balasız qalsın, balaca Zəhra atasının il mərasimində onun məzarı üstdə skripka çalsın. Hər bir şəhidimiz ya gənc ailə başçısı idi, ya da gələcəyin ailə bacısı, gələcək ailə. Yəni qızıl genofondumuz.

Fəqət, nə edəsən ki, arxasında məkrli bir havadarın durduğu bir düşmənlə qabaq-qənşərik. Yoxsa ki, Rusiya kənara çəkilsəydi, işğalçının cavabı çoxdan verilmişdi - artıqlaması ilə, aprel şəhidləri olmadan...

YENİ MÜSAVAT
N 68 (6682) 4 aprel 2017

**Rusiyada fəaliyyət göstərən Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) ləğvinin gündəmə gəlməsi ciddi rezonans doğurub. Xatırladaq ki, Rusiya Ədliyyə Nazirliyi Ümumrusiya Azərbaycan Konqresinin ləğv edilməsi üçün Ali Məhkəməyə müraciət edib. Nazirliyin İctimai Əlaqələr Departamentindən APA-ya bildiriblər ki, ÜAK fəaliyyətində Rusiya Federasiyasının mövcud qanunvericiliyini pozub: "Rusiya Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən nəzarət-təftiş tədbirləri zamanı ÜAK-ın Rusiya qanunvericiliyini, eləcə də öz nizamnaməsinin müddəalarını pozduğu aşkarlanıb. Rusiya Ədliyyə Nazirliyi "İctimai Təşkilatlar haqqında" qanunu əsas götürərək ÜAK-ın Mərkəzi Şurasının Rəyasət Heyətinə aşkar olunan pozuntuların aradan qaldırılması ilə bağlı dəfələrlə xəbərdarlıq edib". Qeyd olunub ki, təşkilat pozuntuları aradan qaldırmadığına görə bu il martın 3-də Rusiya Ədliyyə Nazirliyi Ali Məhkəməyə təşkilatın ləğvinə dair inzibati iddia qaldırılması üçün müraciət edib. Rusiya Ali Məhkəməsinin qərarına əsasən, müvafiq məhkəmə işinə aprelin 11-də baxılacaq.**

# "ÜAK-ın qeydiyyatının ləğvinin heç bir hüquqi əsası yoxdur"-deputat

## Zahid Oruc: "Azərbaycanda narahatlıq yaradan bu məsələni diplomatik kanallarla həll etmək mümkün olacaq"

Diasporla İş üzrə Dövlət Komitəsi aprelin 3-də bununla bağlı açıqlama yayıb. Açıqlamada bildirilir ki, ÜAK-ın ləğv olunması, yaxud onun ictimai nüfuzunun zədələnməsinə yönəlmiş təşəbbüslər xalqlarımız arasında qarşılıqlı etimada əsaslanan çoxəsrlik dostluq ənənələrinin, habelə Azərbaycan-Rusiya strateji tərəfdaşlıq münasibətlərinin ruhuna ziddir və bu münasibətlərin inkişafında maraqlı olmayan qüvvələrin mənafelərinə xidmət edə bilər.

**Milli Məclisin deputatı Zahid Oruc da məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlama verib. Deputat qeyd etdi ki, ÜAK Rusiyadakı ictimai proseslərdə çox yaxşı mövqe tutub. Həmin ölkədə yaşayan azərbaycanlıların təşkilatlanmasında müxtəlif ideyalar ətrafında birləşməsində önəmli rol oynayıb. Onlar diaspora qurumlarımız içərisində xüsusi yer tutan qurumlardan biridir:** "Həmçinin, ümumiyyətlə, strateji mənada götürsək, bir neçə ölkədə Azərbaycanın yaxşı ictimai dayaqlara, siyasi əlaqələrə daha çox ehtiyacı vardır. Rusiya, ABŞ, Almaniya, Fransa və Britaniya kimi ölkələrlə mühüm əlaqələrin mövcudluğu bizim bir tərəfdən həmin ölkələrin informasiya məkanında yaxşı mövqe tutmağımıza şərait yaradır. Həmçinin seçilmiş hakimiyyət orqanları ilə münasibətlər qurmağa kömək



edir. Daha artıq dərəcədə orada yaşayan azərbaycanlıların cəmiyyətin alt qatında deyil, idarəetmə sisteminə aparıcı mövqelərə yönəlməyində vacib rol oynayır. O cəhətdən Rusiyada ÜAK-ın qeydiyyatı ilə bağlı məsələlərin informasiya məkanına yansıması fonunda güman edirəm ki, Azərbaycanın hakimiyyət orqanları bu prosesə fəal müdaxilə edəcəklər. Çünki ÜAK-ın qeydiyyatının ləğvi, hətta onun Azərbaycandan maliyyələşməsi məsələsinin dövriyyəyə bir informasiya kimi çıxarılmasının heç bir hüquqi əsası yoxdur. Ölkəmizlə Rusiyanın hazırkı münasibətləri elə bir səviyyədədir ki, oradan Rusiyanın hazırkı iqtidarı özü üçün xüsusi bir əlahiddə təhlükə görmür. Yəni bunun üçün qeyri-rəsmi, bağlı qapılar arxasından özəl tapşırıqların və direktivlərin verilməsini də düşünmürəm. Mümkündür ki, hansısa bəlli hökumət qurumlarının müəyyən bir həlqələrində kimsə fərqli bir mövqeyini göstərmək istəsin, bürokratik əngəllər yaratsın".

**Z.Oruc nəticə etibarilə bütün o maneələrin aşılacağına əminliyini də ifadə etdi:** "Məsələnin sırf məhkəmə və hüquq müstəvisində çözülməyinə gediləcəksə, bu, qarşılıqlı reaksiyalar və eyni hərəkətləri doğuracaq. Zənn edirəm ki, Rusiyanın hazırkı siyasi elitası bunda maraqlı ola bilməz. Çünki azərbaycanlıların yaratdığı konqres bu gün Rusiya əleyhinə hansısa mübarizələrdə yer almayıb. Bir sıra hallarda Vladimir Putinin yürütdüyü siyasətə dəstək verib. Belə olan təqdirdə bu qurumun fəaliyyətinin sırf formal qeydiyyatı məsələsi xüsusi problem olmamalıdır. Azərbaycanda yaşayan ruslar bütün səviyyələrdə dövlət tərəfindən diqqət və xoş münasibət görürlər. Azərbaycanda yüksək şərait yaradılmış rus icması fəaliyyət göstərir. Bunun da qarşılığını ummağa Azərbaycanın ixtiyarı var. Mənə elə gəlir Azərbaycanda narahatlıq yaradan bu məsələni diplomatik kanallarla normal şəkildə həll etmək mümkün olacaq".

❑ **Etibar SEYİDAĞA**

# İtaliyada TAP əleyhinə aksiyalarda Rusiya izi

## Şimal qonşumuz Avropada ona alternativ olacaq layihənin reallaşmasına mane ola biləcəkmi?; ekspertlərə görə, layihənin ləngiməsi təhlükəsi var

**Azərbaycanın milyardlar qazandıracaq enerji layihəsi İtaliyada etirazlara səbəb olub. İtaliyada Azərbaycan qazını Avropaya çatdıracaq Transadriatik Qaz Kəmərinin (TAP) tikintisinə qarşı böyük etiraz aksiyası keçirilib. Ölkə mətbuatının məlumatına görə, etiraz aksiyaları ölkənin cənubunda yerləşən Apuliya bölgəsinin sakinləri tərəfindən kəmərin marşrutu üzərində baş tutub.**




Aksiyalar zamanı polislə etirazçılar arasında toqquşmalar olub. Nəticədə xəsarət alanlar var. Sakinlər TAP kəmərinin keçəcəyi ərazidə çoxillik zeytun ağaclarının kəsilməsinə qarşı çıxırlar. İtaliyanın Ali Administrasiya Məhkəməsi qaz kəmərinin tikintisinin davam etdirilməsi barədə qərarı təsdiqləyib. Vilayət məhkəməsi TAP-ın tikintisi ilə bağlı şikayət etmişdi.

"EurasiaNet ttp://www.eurasianet.org/" saytında dərc edilən məqalədə Azərbaycanın, eləcə də Qərbin bu məsələdə Rusiyadan şübhələndiyi, Azərbaycan və ABŞ rəsmilərinin Rusiyanın əleyhinə fikirlər səsləndirdiyi qeyd edilir. Aksiyaların keçirilməsinə İtaliyanın rusiyameyllı müxalifət liderlərinin də rolu var. Onlar bu yolla Rusiya rəhbərliyinin simpatiyasını qazanıb, onların dəstəyi ilə hakimiyyətə gəlməyi hədəfləyirlər.

2014-cü ildə NATO-nun o, vaxtkı baş katibi Anders Foq Rasmussen deyib ki, Rusiya ətraf mühit fəalları vasitəsilə yalan informasiya yayaraq, layihəyə mane olmağa, Avropanın Rusiyadan asılılığını saxlamağa çalışır. SOCAR-ın vitse-prezidenti Elşad Nəsirov isə TAP əleyhinə təbliğatın Rusiyanın məqsədlərinə xidmət etdiyini söyləyib.

**"Yeni Müsavat"a açıqlamasında məsələyə münasibət bildirən Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban da baş verən hadisələrdə Rusiyanın əli olmasını istisna etmədi:** "İtaliya parlamentindəki müxalif deputatların da zeytun ağaclarının kəsilməsinə görə keçirilən aksiyaya qatılması o deməkdir ki, proses artıq böyüyüb. Parlamentdə 22 faizlə təmsil olunan müxalifət partiyasının mitinqlərdə iştirak etməsi və həmin partiya liderinin Rusiyaya isti münasibətinin bəlli olması da təsadüfi deyil. O, "Azərbaycan qazı İtaliyaya lazım deyil" tipli bəyanatlar səsləndirib. Bildirib ki, İtaliya hökuməti ölkəsi üçün daha gərəkli olan layihələrə diqqət yönəldə bilərdi. Bütün bunlar ona dəlalət edir ki, burada Rusiyanın maraqları var. Bu ölkənin xarici siyasətinin və iqtisadi maraqlarının nəticəsi olaraq TAP layihəsinin Avropada reallaşmasında çətinliklər yaranır".

**İlham Şabanın sözlərinə görə, Cənub Qaz Dəhlizi layihəsinin reallaşması Rusiyada qıcıq doğurur:** "Rusiya rəsmiləri bəyanat verir ki, bu layihələr bir-birinə rəqib deyil, biz dost ölkələrik. Ancaq fakt bundan ibarətdir ki, 2020-ci ildə Azərbaycan qazı Avropa bazarına çıxacaq. Avropa öz qarşısına məqsəd qoyub ki, qaz bazarını identifikasiya edəcək. Bu identifikasiya isə Azərbaycan qazının hesabına olacaq. Nəticədə bazarda Rusiyanın payı azalacaq. Rusiya Avropa bazarında qaz satmaq imkanını müəyyən dərəcədə itirəcək. Ona görə də Rusiya bu bazarlar uğrunda mübarizə aparır. Digər tərəfdən, Rusiya özünün "Türk axını" layihəsini reallaşdıra bilmədi, ancaq Azərbaycanın Cənub Qaz Dəhlizi layihəsi nə qədər mürəkkəb olsa da, reallığa doğru gedir. İtaliya layihənin həyata keçirilməsi ilə bağlı bütün qərarlarını verib, real addımlar atmağa başlayıb. Rusiyanın "Qazprom" şirkəti isə "Cənub axını" layihəsinin Avropaya çatdırılmasında bir sıra problemlərlə üzləşib. Avropanın Azərbaycan qazına şərait yaratması, eyni zamanda kəmərin istiqamətinin müəyyənləşdirilməsində yaxından iştirak etməsi, həmin münasibəti Rusiyaya göstərməməsi Moskvada qıcıq yaradır. Rusiyada bəzi dairələrdə TAP layihəsinə istehza ilə yanaşırdılar. Bu mənada müxtəlif metodlarla TAP layihəsinin qarşısına maneələr çəkilir. İtaliyanın cənubu kasıb bir bölgədir. Orada istənilən kəndliyə 100 avro versəniz, istənilən şüarla etiraz aksiyasına çıxarlar. Onlar üçün zeytun ağacları, sadəcə, bəhanədir. Çox təəssüf ki, Avropa Enerji Məsələləri üzrə Komissarlığının bu kimi hallarda hökumətlərə dəstək olmaq imkanı yoxdur ki, bu layihələrin reallaşmasına törədilən əngəllər aradan qalxsın. Onlar bildirirlər ki, TAP bizim üçün prioritet layihədir. Ancaq orada insan haqlarının üzərindən də keçə bilmərik. Bu isə o deməkdir ki, bu kimi məsələlər TAP layihəsinin gecikməsinə səbəb ola bilər. Yəni təhlükə var".

**Politoloq Elxan Şahinoğlu da vurğuladı ki, Rusiya son zamanlar Avropadakı bütün müxalif hərəkatlara dəstək verir:** "Artıq Fransada Mari Lipeni dəstəkləyirlər, çünki o Rusiyaya qarşı sanksiyaların aradan qaldırılmasının tərəfdarıdır. Lakin onun prezident seçilmək şansı o qədər də yüksək deyil. Hollandiyada millətçiləri dəstəkləyirlər. Ola bilər ki, İtaliyada da məhz o qüvvələri dəstəkləyirlər ki, onlar TAP-a qarşı çıxırlar. Zeytun ağaclarını bəhanə edərək prosesi yubatmağa çalışırlar. Çünki Rusiya da Türkiyə üzərindən eyni layihəni həyata keçirməyi planlaşdırır. Bu mənada indiyə qədər baş verən proseslərdə Rusiyanın ciddi marağı olub".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 68 (6682) 4 aprel 2017

**Hazırda həbsdə olan və üzərində məhkəmə qurulan MTN generalı Akif Çovdarov səhhəti ilə bağlı problemin həll edilməsi üçün dəfələrlə məhkəməyə müraciət edib. "Ürək xəstəliyindən əziyyət çəkən MTN generalı vəkilləri vasitəsilə dəfələrlə vəsatət verərək Holter aparatı vasitəsilə müayinə edilməsini istəyir. Ancaq məhkəmə bu vəsatəti əsassız hesab edərək hər dəfəsində rədd edib".**

# "Ölümümü sifariş veriblər"

## Akif Çovdarov tibb baş idarəsinin rəhbərliyini ona qarşı planı icra etməkdə suçladı

Bunu **Çovdarovun vəkili Kamandar Nəsibov** musavat.com-a açıqlamasında bildirib. O qeyd edib ki, həbsdə olan general ürəyində olan problemlərlə bağlı 2006-cı ildə Almaniyada əməliyyat olunub. Vəkil deyir ki, artıq 11 ilə yaxındır eyni xəstəlikdən əziyyət çəkən Çovdarovla Bakı İstintaq Təcridxanasında görüşüb və onun tənəffüs çatışmazlığından, ürək döyüntüsünün aşağı olmasından əziyyət çəkdiyini müşahidə edib: "Çovdarova 2011-ci ildə Almaniyada "Vivantes" klinikasında "C16.0 Kardianın bədxassəli törənməsi" diaqnozu qoyulub və "5-399.5 Venoz portun implantasiyası və dəyişdirilməsi, intravenoz port qoyulması" əməliyyatı keçirilib. Növbəti əməliyyatda onun mədəsi amputasiya olunub. Sonuncu dəfə 2016-cı ilin fevralında saxlanıldığı təcridxananın Tibb-sanitar hissəsində Akademik Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu əməkdaşları tərəfindən "EKQ-nin Holter monitorinqi və arterial təzyiqin sutkalıq monitorinqi" müayinələrindən keçirilib. Müayinələr nəticəsində institutun əməkdaşlarının konsiliumu tərəfindən Çovdarova "Ürəyin işemik xəstəliyi. Aorta-koronar, şuntlama əməliyyatından sonrakı vəziyyət (T82.2). Səyrici aritmiya, taxsistolik forma (İ49.0)" diaqnozu qoyulub. Həmçinin Səhiyyə Nazirliyinin həkim-ekspertləri tərəfindən tibbi ekspertizada keçirilib və müəyyən edilib ki, Çovdarov hazırda ürəyin işemik xəstəliyi, aorta-koronar şuntlama əməliyyatından sonrakı vəziyyət, ritm pozğunluğu və digər xəstəliklərdən əziyyət çəkir.

Bunların hamısını vəsatətimizdə qeyd edərək məhkəmədən xahiş etmişik ki, Konstitusiyanın 41-ci maddəsinə, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 22.6-cı maddəsinə, "İstintaq təcridxanalarının daxili intizam Qaydaları"nın 27.5 və 27.6-cı bəndlərinə və "Tutulmuş və ya həbs edilmiş şəxslərə tibbi və psixoloji yardım göstərilməsi, habelə onların tibb müəssisələrində saxlanılması Qaydaları"nın 3.5-ci bəndinə əsasən təqsirləndirilən şəxs Çovdarovun Holter aparatı vasitəsilə müayinə edilməsi təmin edilsin. Çovdarov bu müayinənin öz hesabına keçirilməsini istəyir".

**Kamandar Nəsibovun sözlərinə görə, bu günə qədər qeyd edilən məsələ ilə bağlı məhkəməyə verdikləri vəsatət və İstintaq Təcridxanasının Tibb Baş İdarəsinə etdikləri müraciətlər rədd edilib:** "İndi xəstənin sağlıq durumunun real vəziyyəti barədə hazırda heç bir məlumat yoxdur. Halbuki taxsistolik tip səyrici aritmiya və ekstrasistoliya xəstəlikləri müşahidə olunan xəstələr barəsində Holter müayinəsi edilmədən hər hansı bir obyektiv fikir söyləmək qeyri-mümkündür. Bu fakt Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinin həkim-kardioloqu Natavan Qurbanova tərəfindən də təsdiq olunub. Natəvan Qurbanova əvvəlki müayinələri zamanı dəfələrlə bildirib ki, Çovdarovun xəstəliyi hazırda ağırlıq dərəcəsinə görə IV dərəcədir. Tibb baş idarəsinin şübhəli addımlarından biri də budur ki, ara-sıra Natəvan Qurbanovanı Akif Çovdarovun yanına göndərir. Natəvan Qurbanova özü etiraf edir ki, bu cür boşu-boşuna Çovdarovun yanına gəlməsinin mənası yoxdur. O da deyir ki, Holter müayinəsi olmadığı üçün hər hansı bir müalicə yaza bilmir. Natəvan Qurbanova bu barədə rəhbərliyə məlumat verdiyini də söyləyir, amma onun bu fikirlərinə önəm verilmir. Bu o deməkdir ki, Natəvan Qurbanovanı formal olaraq oraya göndərirlər ki, nə vaxtsa Çovdarova bir şey olsa, özlərini müdafiə etmək üçün istifadə etsinlər. Ancaq bir məsələ də var ki, Natəvan Qurbanovanı Çovdarovun yanına göndərsələr də, bu, xəstəlik kitabçasında qeyd edilmir. Çovdarov Natəvan Qurbanovanın onun yanına gəlməsini inkar etsə, onlar bunu sübut edə bilməyəcəklər. Natəvan Qurbanovaya imkan vermirlər ki, onun Çovdarovun yanına gəlməsinin hər hansısa bir sənəddə izi qalsın.



Akif Çovdarov

Biz Elmi-Tədqiqat Kardiologiya İnstitutuna müraciət edərək Holter aparatı vasitəsilə müayinə keçirilməsini xahiş etmişik. Özəl klinikalardan birindən mütəxəssis də dəvət etmişik. Məhkəməyə də bununla bağlı bir neçə dəfə vəsatət vermişik. Amma heç bir əsas olmadan vəsatət təmin edilməyib. Tibb baş idarəsinin rəis müavini İftixar Qurbanova ünvanladığımız müraciətlər də cavabsız qalıb və ya rədd edilib".

**Vəkil onu da qeyd edib ki, həbsdə olan general ölümünün sifariş edildiyini deyir. Çovdarov bu haqda vəkili ilə görüşündə ona məlumat verib:** "Akif Çovdarov ötən ilin sonlarında 1 aydan çox aclıq aksiyası keçirmişdi. Səbəb isə tibb baş idarəsinin qanunsuz hərəkətlərinə etiraz idi. Həmin vaxt heç bir qərar olmadan Holter aparatı təcridxanaya gətirilmişdi. Çovdarov birinci dəfə 2016-cı ilin fevral ayında, istintaq müddətində Holter müayinəsindən keçirilib. Həmin vaxt Çovdarov prokurorluğun sərəncamında idi. Deyirlər ki, o zaman istintaqın nəzarətində olub və buna görə də Holter aparatı ilə müayinəyə icazə verilib. İndiki deyilən məntiqlə yanaşsaq, gərək o zaman prokurorluq da Çovdarovun Holter aparatı ilə müayinə olunması ilə bağlı qərar verərdi. Ancaq belə bir qərar verilmədi. 2016-cı ilin noyabrında da təcridxanaya Holter aparatı gətirəndə heç bir qərar tələb edilmədi. Onda niyə icazə vermişdilər? Hazırda məhkəmə və təcridxana Holter aparatı ilə müayinədən elə qorxur, elə çəkinir ki, sanki bununla Çovdarova bəraət vermiş olacaqlar. Həmçinin indi tibb baş idarəsindən bildirilir ki, Holter aparatı vasitəsilə müayinəyə ehtiyac yoxdur. Bu qənaətə necə gəliblər? İndi məlum olan budur ki, bunu qəsdlə edirlər. Akif Çovdarovla bu məsələ haqda danışanda dedi ki, "Məni öldürmək sifarişi verilib. Sifarişi icra edən isə tibb baş idarəsidir. Amma onlara bu göstərişi kimin verdiyini bilmirəm. Rafael Mehdiyev, İftixar Qurbanov görünən budur ki, sifarişi icra edənlərdir. Mənim müayinəmin qarşısını almaqla ölümümü gerçəkləşdirmək istəyirlər"".

Bildirək ki, A.Çovdarovla birlikdə müttəhimlər kürsüsünə ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov da çıxarılıb.

❑ **İlkin MURADOV**

# Girdabın dibində "irəliyə addım"



**Xalid KAZIMLI**

**Qatı diktatura rejimlərindən fərqli olaraq, demokratik dövlətlərdə, eləcə də az-çox demokratiya işartıları olan ölkələrdə seçki ehtirası güclü olur. Qatı diktaturalarda ona görə seçki ehtirası güclü olmur ki, hamı seçənin də, seçilənin də kimlər olacağını seçkidən çox-çox əvvəl, hətta seçki kampaniyası başlamazdan bilirlər. Ona görə də ortada nə seçib-seçilmək həvəsi qalır, nə də hər hansı bir intriqa.**

Ancaq demokratik dövlətlərdə son günə qədər seçki qutusundan, yəni sandıqdan kim(lər)in adının çıxacağı bəlli olmur. Bu üzdən seçki kampaniyası çəkişməli, qızğın, gərgin keçir.

Məsələn, ötən ay Hollandiyada keçirilən parlament seçkilərində hansı partiyanın qələbə qazanacağını proqnozlaşdırmaq, praktik olaraq, mümkün deyildi. Ən obyektiv sorğu mərkəzlərinin hesabatı iqtidar partiyası və müxalifət blokunun şansını ya bərabər göstərirdi, ya da müxalif blokun cüzi səs çoxluğu ilə qələbə qazanacağını iddia edirdi.

Bu baxımdan Hollandiyadakı seçkilərin nəticələri gözlənilməz oldu. Ancaq bu gözlənilməzlik izahedilməz deyildi. Hakim partiyanın seçki ehtirasını süni şəkildə qızışdıraraq, müxalifətin başlıca döyüşçü şüarını əlindən alması, Türkiyənin simasında özünə "xarici düşmən" qazanması seçkini udmasının əsas səbəbi göstərilir.

Srağagün demokratiya ilə uzaqdan, yaxından əlaqəsi olmayan Ermənistanda keçirilən seçkilərdə seçib-seçilmək şövqü ona görə şiddətli idi ki, neçə vaxtdır bu ölkədə klanlararası müharibə gedir və onun ehtirası seçkilərə yansımışdı.

Ancaq göründüyü kimi, Ermənistandakı seçkinin nəticələri gözlənilməz olmadı: hakim partiya yenə də seçki birincisi *(seçicilərin tən yarısının səsini "toplamaq"la)* oldu. İkinci yeri tutan blokun da prezidentə yaxın olduğunu nəzərə alsaq, bu, o deməkdir ki, Ermənistandakı seçkilər ənənəvi qaydada, tanış müstəvidə keçirilib.

Zatən, hələ seçkidən əvvəl bir sıra siyasi xadimlər, o cümlədən vaxtilə bu ölkəni idarə etmiş Levon Ter-Petrosyan və Robert Koçaryan seçki kampaniyasının obyektivliyini şübhə altına almış, ədalətin pozulduğunu, şəffaflıq olmadığını və bunun seçkilərin nəticələrinə mənfi təsir göstərəcəyini bəyan etmişdilər.

Köçəryan 2 aprel seçkisinin "pul kisələrinin həyasız müharibəsi" adlandırmışdı. Keçmiş prezident belə deyərkən, seçkilərə qatılan, daha çox deputat mandatı qazanmaq istəyən qüvvələrin seçici səslərini pul gücünə almağa çalışdıqlarını, piara daha çox pul xərclədiklərini nəzərdə tuturdu.

Ortada dolaşan pullar isə keçmiş yüksək mənsəbli şəxslərin, eks-nazirlərin korrupsiya hesabına topladıqları vəsaitlər idi.

Bu baxımdan, Ermənistanda hansı qüvvə seçki birincisi olsa da, bu, nə Ermənistandakı real vəziyyəti, nə də onun xarici siyasətini dəyişəcək gücdə deyildi. Sadəcə, bir millətçi-korrupsioner komandanı digər korrupsioner-millətçi komanda əvəz edə bilərdi. Bu isə baş vermədi.

Seçki ehtirası nə qədər şiddətli olsa da, o qədərini heç kim gözləmirdi. Hamı anlayırdı ki, prezident Sərkisyan və onun əlindən hər şey gələn komandası düzüb-qoşacaq, özü qalib gələcək.

Ancaq bu seçkilərin Ermənistan üçün yeganə faydası seçki kampaniyasının plüralizm atmosferində keçirildiyi görüntüsü yaratması, bir də seçkinin nəticələrinin "Avropa ölkələrində keçirilən seçkilərin nəticələri"nə bənzədə bilməsidir.

Görək, üfürülən kül Avropa üstqurumlarının, qüdrətli siyasi dairələrin gözünü tutacaqmı?

Hər halda, Ermənistan müxalifəti seçkilərdə çoxsaylı qanun pozuntularına, neqativ hallara yol verildiyi barədə ortaya çoxlu sənəd-sübut qoyub. Bunlar, əlbəttə ki, seçkinin nəticələrinə ciddi təsir göstərməyəcək və böyük ehtimalla avropalı müşahidəçilər bu seçkini "irəliyə doğru addım" adlandıracaqlar.

25 ildir ki, belədir. Bu sayaq seçkilər keçirə-keçirə "irəliyə addımlar atan" Ermənistan isə hələ də girdabın dibindədir.



# Bənzərimiz çox olsa yaxşıdır

Zamin HACI
zaminhaci@gmail.com

"İtim, gəl dur önümdə,
gəl başına dönüm də,
Sən Pünhanın günündə,
Pünhan da it günündə"
*(Baba Pünhan)*

**Ermənistanda deputatxana seçkisində yerli hakimiyyətin xoşuna gəlməyənlər, müxalifətçilər uduzduruldu. Nə gizlədək, biz buna bir növ şad olduq. Çünki Ermənistanda demokratiyanın qalib gəlməsi onların hardasa bizdən qabağa keçməsi sayılardı. Qarabağın bizdən daha da uzaqlaşmasına xidmət edərdi. Ancaq bunlar bizim "cəhənnəmə gedən özünə yoldaş axtarar" məntiqimizdən doğub. Normal halda yaxşı olardı orda müxalifət deputatxanaya keçsin. Görün biz hansı gündəyik: qonşunun da bizim gündə olmasına sevinirik. Bizi bu hala gətirib çıxardıblar.**

Dünən xəbərlərdə oxudum, baş nazirin müavini Abid Şərifovun səhhətində problem çıxıb, onu İsraildəki klinikaya aparıblar. Baş nazirin müavini olasan, öz nazirliyinə, öz ölkəndəki səhiyyə xidmətinə etibar etməyəsən... Bəs biz nə edək? Niyə bizi yerli xəstəxanada uzadıb sağ ayaq yerinə sol ayağımızı kəsməlidirlər, ancaq bizi idarə edənlər xarici ölkələrin səhiyyəsindən yararlanmalıdır? Xeyir ola?

Bakıda dövlətin pulu ilə bina təmir ediləndə jurnalist bunun niyə tenderlə olmadığını, vəsaitin hansı şirkətə, hansı məmura yaxın quruma köçürüldüyünü dəqiqləşdirmək istəyəndə Abid müəllim məşhur "Sənə nə var kimə vermişik? Alabalaya verilib" sözlərini demişdi. İndi maraqlıdır ki, Abid müəllimin İsraildə müalicə aldığı klinikanın adı "Rambam"dır. Bəlkə də rambam yəhudi dilində elə alabala deməkdir. Səslənişi çox yaxındır. Bir versiya da var ki, Abid müəllim özü İsraildə şəxsi klinika alacaq qədər pullu adamdır.

Nə biləsən... Çox alabula rejimdə yaşayırıq. Bir tərəfdə 200 manat üstündə 3 nəfərin başını kəsirlər, o biri tərəfdə isə "Ferrari" ötüşdürülür. Bir yanda kürü yaxmacı basılır, o biri yanda eşşək ətindən dönərə möhtac adamlar yaşayır. Azərbaycandakı ziddiyyətlərin necə dinc yanaşı yaşamasına baxsa Aristotel intihar edərdi.

Sözgəlişi, baş nazirin o biri müavini Əli Həsənov da bu yaxında demişdi ki, fərarilərə, əsgərlikdə olmayanlara qız verməsinlər, onlar elə həyatdan nakam köçsünlər. Həmin qərar yerinə yetirilsə, bəs hakimiyyətdə olanların öz övladları necə bir-biriylə ailə qurub quda olacaqdır? Sanki Əli müəllim oturduğu budağı baltalayırdı. Axı biz cəbhə xəttində qulluq edən, əsgərlik çəkən bir varlı-məmur-yapist balası da görməmişik. Nəinki yuxarı rəhbərlikdən, heç balaca kənd icra nümayəndəsinin övladlarından da cəbhə xəttinə düşən, vətən uğrunda qəhrəmancasına həlak olan bir şəxs görmürük. Kompüter seçirsə, niyə ancaq yetimləri, uçuq daxmalarda yaşayanları qaralayıb, görəsən? Əcəb işdir. Bill Geyts də bizi sevmir.

Amerikalı astronavt qadın var, adı Peqqi Uitson-dur. Bu xanım kosmosa uçan ən yaşlı qadın olaraq (57 yaşındadır - bunun tayları parkda nəvə fırladır) rekord vurmuşdu, sırağagün isə qadınlar arasında daha bir rekorda imza ataraq açıq kosmosda ümumən 8 saat qalmışdır.

İndi Peqqi xanımı dəvət eləmək lazımdır Azərbaycana, buyursun bizim hansısa küçədən gecə vaxtı demirəm, axşamlar təkcə keçsin görüm necə keçir. Əlli kişi söz atacaq, biri namussuz elan edəcək, başqası yiyəsiz. Açıq kosmosa nənəm də çıxar, orda kim adama ilişir ki? Azərbaycanda qadın taleyi yaşamaq NASA-da astronavt olmaqdan çətindir.

Sonda bir sevindirici xəbər var ki, Amerika prezidenti Tramp, sən demə, martın ortalarında Almaniyanın kansleri Angela Merkellə görüşərkən ona əllə salam veribmiş. Həmin vaxt bu tema ciddi müzakirə olunmuşdu, çünki Tramp fotojurnalistlərin "əl tutuşun" sözlərinə baxmayaraq Merkellə salamlaşaraq şəkil çəkdirməmişdi. Biz də dedik gör dünya nə kökə düşüb, artıq salam verməmək ayıb sayılır. İndi Tramp deyir səhviniz var, mən həmin görüşdə Merkellə düz 5 dəfə əl görüşmüşəm. Şükür, ürəyimiz yerinə gəldi, planetin ciddi əllərdə olduğuna inandıq. Yoxsa fikirləşirdik hamısı Qafqazın gününə düşüb.

Hərçənd niyə 5 dəfə? Bunun özü də şübhəlidir. Normal adam bir gündə uzağı iki dəfə əl görüşər. Bir salam, bir də sağ ol mənasında. Bu, deyəsən, Merkelin hər barmağına bir dəfə salam verib.

# 25 illik diplomatik əlaqələrin baş sualı

**Bu günlər Azərbaycanla Rusiya arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyi tamam olur. Beləcə, əsrin 1/4-i qədər Azərbaycan Rusiyadan öz müstəqilliyini qoruyub saxlaya bilib. Hərgah, ötən dövr Moskvanın səbəb olduğu əngəllər üzündən olduqca mürəkkəb və ağır keçib, Rusiyanın aydın "barmaq izləri" olan çevrilişlər və çevrilişlərə cəhdlərlə yadda qalıb.**



# Rusiyanın məxfi Qarabağ planı - şərikli işğalçılıq bitəcəkmi?..

## Bakı-Moskva münasibətlərinin önündəki əsas əngəlin - Qarabağ maneəsinin nə vaxt götürüləcəyi bilinmir; **rusiyalı tanınmış politoloq:** "Qarabağ münaqişəsi zonasında təhlükəli və anlaşılmaz situasiya yaranıb..."

Şimaldan yaradılan bu kimi əngəllər hələ də iki ölkə arasında münasibətləri etibarlı və güclü təməl üzərinə keçirməyə imkan vermir. Söhbət öncəliklə Kremlin körüklədiyi, hələ də alovlanan Qarabağ münaqişəsindən gedir. Doğrudur, bu müddətdə Rusiya ötən əsrin 20-ci illərindəki kimi, müstəqil Azərbaycana hərbi təcavüz etməyə cürətlənməyib, ancaq əvəzində Azərbaycan ərazisinin 20%-nin Ermənistan tərəfindən işğalına birbaşa yardımçı olub, işğalçının yanında yer alıb, lap dəqiqi, bizə qarşı şərikli işğalçılıq edib.

Bu harasıdır, üstəlik, Moskva konfliktin ədalətli həllinə kömək eləmək istəmir və bizi torpaqları azad eləmək üçün hərbi gücdən istifadə etməyə qoymur, hətta xəfif şəkildə bizi hədələyir. Rusiyanın xarici işlər naziri Sergey Lavrovun "Qarabağda müharibə Azərbaycanın daxili məsələsi deyil" məlum açıqlaması məhz bu anlamı daşıyır. Lavrovun sözlərinin diplomatik münasibətlərin 25 illiyində səslənməsi isə ikiqat simvolik məna daşıyır.

Aydındır ki, Qarabağ ixtilafı çözülməyincə, Azərbaycanda Rusiyaya qarşı heç vaxt dərin etimad mühiti olmayacaq. Demək, ikitərəfli əlaqələr də arzulanan yüksək, strateji səviyyəyə çatmayacaq. Hər halda, münasibətlərin strateji xarakteri o deməkdir ki, tərəflər arasında heç bir ciddi problem yaşanmır. Rusiya ilə Azərbaycan arasında isə Qarabağ problemi var, qalır - Moskva rəsmiləri bunu etiraf etmək istəməsələr də.

Bakı rəsmiləri, son olaraq isə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov açıq şəkildə bəyan edib ki, Moskva istəsə, Qarabağ problemini qısa zamanda yoluna qoyar. Bu, həqiqətən belədir və əlbəttə ki, həm də Azərbaycan xalqının rəyidir, şimal qonşumuza qarşı ölkəmizdə və Azərbaycan toplumunda hansı daşlaşmış etimad göstəricisinin olduğunu göstərir.

*****

Bəs bundan sonra iki ölkə əlaqələrinin perspektivi nə vəd edir? Rusiya Azərbaycanı qazanmaq üçün nəhayət, Dağlıq Qarabağ məsələsinin həllinə təkan verə bilərmi? Politoloqların bu xüsusda rəyləri birmənalı deyil.

**"Yaxın illərdə Rusiya-Azərbaycan əlaqələri asan olmayacaq, çünki Cənubi Qafqaz regionunda sabitliyin pozulması təhlükəsi var". Musavat.com-un məlumatına görə, bu barədə Bakıda Rusiya-Azərbaycan diplomatik əlaqələrinin 25 illiyinə həsr olunmuş dəyirmi masada tanınmış rusiyalı politoloq Qriqori Trofimçuk bildirib.**

"İstərdik ki, ötən illər gələcək Azərbaycan-Rusiya münasibətləri üçün möhkəm təməl rolu, yeni start olsun, nəinki sönməkdə olan postsovet dostluğunun simvolu", - deyə ekspert qeyd edib. Onun sözlərinə görə, Bakı Moskva üçün bütün sahələr üzrə əlaqələrdə mühüm önəm kəsb edir: "Söhbət iqtisadi, hərbi-siyasi, humanitar, strateji sferalardan gedir - istər regional xarakterli olsun, istərsə də beynəlxalq səviyyəli. Azərbaycan Rusiyanın daha çox qlobal tərəfdaşıdır, nəinki regional. Moskvanın Bakıdan öyrənməli şeylər də var. Xüsusən də konfessional sahədə - hansı sahədə ki, Rusiyanın bəzi problemləri mövcuddur".

**Rusiyalı analitik hesab edir ki, Moskva türk dünyasının həlledici ölkəsi kimi Azərbaycanın əhəmiyyətini başa düşməlidir.** "Rusiya həmçinin Azərbaycan nümunəsində türk dünyası ilə daha sıx təması öyrənməlidir. Postsovet məkanında həll olunmamış problemlərin çoxluğunu nəzərə alsaq, Yaxın illərdə Rusiya-Azərbaycan əlaqələri asan olmayacaq, çünki Cənubi Qafqaz regionunda sabitliyin pozulması təhlükəsi və digər mürəkkəb regional situasiyalar təhlükəsi var" - Trofimçuk xəbərdarlıq edib.

**Politoloq hesab edir ki, Dağlıq Qarabağ münaqişəsi zonasında son kəskinləşmələrdən sonra təhlükəli və anlaşılmaz situasiya yaranıb:** "Moskva bu vəziyyəti öz axarına buraxa bilməz. Bu zaman məhz Bakı məsələnin həllində kompromislərə səy edir. Bakının Azərbaycanla Ermənistan arasında Sülh Platformasi hazırlaması və Dağlıq Qarabağın statusunu müzakirəsinə hazır olması bu qəbildəndir".

*****

**Bu arada Sergey Lavrov bəyan edib ki, Moskva Qarabağ konfliktinin həll prosesinin aktiv iştirakçısıdır. Bu fikri o, Ermənistanın "Novoye Vremya" qəzetinə müsahibəsində söyləyib.** "Rusiya ABŞ və Fransa ilə birgə, tərəflərə konfliktin uğurlu həll edilməsində yardım edir. Əksər məsələlərdə razılıq əldə etmək mümkün olub. Bir neçə, amma daha mürəkkəb məsələ qalıb. Lakin aydındır ki, işə yekun vurulması ilk növbədə iki ölkənin öz siyasi iradəsindən və onların kompromis qərarlara getməyə hazır olmasından asılıdır", - deyə Rusiyanın baş diplomatı vurğulayıb.

Ancaq Rusiya XİN başçısı sözsüz ki, növbəti dəfə blef edir. Çünki hamı yaxşı bilir ki, marionet Ermənistan Azərbaycandan fərqli olaraq, Dağlıq Qarabağ məsələsində həlledici söz və iradə yiyəsi deyil. Yəni əslində Bakı ilk növbədə Moskva ilə anlaşmalıdır, nəinki İrəvanla. Rusiyanın isə Qarabağa dair öz gizli planı var.

**"Rusiya xarici işlər naziri Lavrov təkzib etsə də, Kremlin Qarabağla bağlı müəyyən planı var". Bunu isə diplomat, politoloq Fikrət Sadıqov deyib (axar.az). Politoloqa görə, Rusiya hazırda sanki İrəvanın mövqeyini yumşaltmağa çalışır:** "Biz Rusiyanın mövqeyinin nədən ibarət olduğunu bilirik. İndi bəyan edirlər ki, bəzi gizli məqamlar var və ona görə də detalları açıqlamırlar. Söhbət ondan gedir ki, əgər bundan əvvəl guya Dağlıq Qarabağı bir dövlət qurumu kimi tanımaq məsələsi gündəmdəydisə, indi bunu yumşaltmaq istəyirlər ki, ermənilər daha sərt mövqeylə çıxış etməsinlər və müəyyən güzəştlər etsinlər. Bu, hələlik mümkün deyil. Çünki əvvələ, Ermənistana kifayət qədər təzyiq göstərilmir. İkincisi, İrəvan xarici və daxili amillərlə əlaqədar özlüyündə mövqeyini dəyişməyəcək".

**Politoloq onu da əlavə edib ki, əgər amerikalı həmsədrin Qarabağa dair həll planı realdırsa və sülh yaratmaq naminə regionda təhlükəsizliyi təmin edəcəksə, onda plan həyata keçə bilər:** "Bir şərtlə ki, Ermənistan artıq açar dövlətlərin təzyiqlərini hiss etməlidir. İrəvan ancaq güc amilini dərk edir. Aprel hadisələri bunu təsdiq etdi. Dağlıq Qarabağ Azərbaycanın tərkib hissədir və biz bu mövqedən çıxış edirik. Hər halda, güzəştə getdiyimiz mövqe ondan ibarətdir ki, ermənilər öz qoşunlarını torpaqlarımızdan çıxardıqdan sonra status məsələsi ilə bağlı müzakirələri davam etməyə hazırıq. Bu, Azərbaycanın prinsipial mövqeyidir".

*****

**Beləliklə, Qarabağ məsələsində hərə öz mövqeyində qalır - Azərbaycan öz prinsipial mövqeyin saxlayır, Ermənistan işğalçı, Rusiya isə işğalçının əsas havadarı "missiya"sını davam etdirir. 25 illik Bakı-Moskva diplomatik əlaqələrinin əsas və acı yekunu da elə budur.**

**❑ Analitik xidmət**

YENİ MÜSAVAT
N 68 (6682) 4 aprel 2017

# Moskvanın ölkəmizdə yeni “rus konseyi” planı

**Bir həftə sonra - aprelin 11-də Rusiya hökumətinin Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) qeydiyyatını ləğv etmək və fəaliyyətini dayandırmaq üçün Ali Məhkəməyə göndərdiyi müraciətə baxılacaq. Ali Məhkəməyə müraciət edən Rusiya Ədliyyə Nazirliyi iddia edir ki, “ÜAK fəaliyyətində Rusiya Federasiyasının mövcud qanunvericiliyini pozub”. Nazirlik bildirir ki, ÜAK-ın Mərkəzi Şurasının Rəyasət Heyətinə aşkar olunan pozuntuların aradan qaldırılması ilə bağlı dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, təşkilat pozuntuları aradan qaldırmayıb və bu səbəbdən də Ədliyyə Nazirliyi martın 3-də Ali Məhkəməyə “təşkilatın ləğvinə dair” inzibati iddia qaldırılması üçün müraciət edib.**




# Kremlin Bakıya qarşı yeni “Milyarderlər ittifaqı” oyunu, yoxsa...

## Rusiya rəhbərliyi ÜAK-ın qeydiyyatının ləğv olunması kimi ciddi siyasi yanlışın qarşısını almaq üçün heç bir çaba göstərmir, bu ölkənin Bakıdakı səfirliyi də susur; Diasporla İş üzrə Dövlət Komitəsi bəyanat yaydı; Azərbaycana qarşı qurulmuş yeni “hüquq oyunu”nun arxasındakı qüvvələr kimlərdir?

**ÜAK bu iddialarla razılaşmır. ÜAK prezidentinin müşaviri, təşkilatın Rəyasət Heyətinin üzvü Kamran Rüstəmov deyib ki, bütün ictimai təşkilatların yoxlanılması Rusiya Ədliyyə Nazirliyinin səlahiyyətində olan məsələdir. O qeyd edib ki, Rusiyada ictimai təşkilatlar haqqında qanuna tez-tez dəyişikliklər olur:** “Qanuna əlavə və dəyişikliklər olur ki, ictimai təşkilatlar da öz nizamnamələrini həmin dəyişikliklərə uyğunlaşdırmalıdırlar. Ötən ilin dekabr ayında ÜAK-ın qurultayı keçirildi. Təşkilatın yeni nizamnaməsi qəbul olundu. İndi həmin nizamnamə təsdiqlənmək üçün Rusiya Ədliyyə Nazirliyinə göndərilib. Onlar özləri təyin etdikləri müddətdə buna baxacaqlar. Biz bütün sənədləri təqdim etmişik. Onlar sənədlərdə müəyyən səhvlər tapdılar. Bunlar mexaniki səhvlərdir. Biz onların tövsiyəsi ilə həmin səhvləri düzəltdik, dəyişikliklər etdik, yenidən nazirliyə təqdim etdik. İndi onlardan cavab gözləyirik”.

**K.Rüstəmov bildirib ki, ÜAK bir gündə ləğv olunacaq təşkilat deyil:** “Konqresin əsası ulu öndər Heydər Əliyev və Rusiya prezidenti Vladimir Putin tərəfindən qoyulub. Bu təşkilatı ləğv etmək asan məsələ deyil. Təşkilatımızın Rusiyanın 70-dən çox regionunda bölmələri fəaliyyət göstərir. Bu böyüklükdə təşkilatı bağlamaq ağlabatan deyil. ÜAK Rusiya və Azərbaycan prezidentlərinə arxalanan təşkilatdır”.

Azərbaycan hakimiyyəti Ədliyyə Nazirliyinin müraciətinə hörmətlə yanaşır və görünür ki, Rusiya rəsmilərinin bu çox mühüm olan bir məsələdə son qərarının iki dövlət arasında münasibətlərə xələl gətirməyəcəyinə ümid edir.

Diasporla İş üzrə Dövlət Komitəsi aprelin 3-də yaydığı bəyanatda bildirib ki, “dünyada və regionda mürəkkəb, ziddiyyətli proseslərin getdiyi indiki şəraitdə ÜAK-ın fəaliyyətinin dayandırılmasının heç də iki ölkənin maraqlarına xidmət etmədiyini çox aydın şəkildə nümayiş etdirir”.

**Komitədən bildirilib ki, ÜAK-ın ləğv olunması, yaxud onun ictimai nüfuzunun zədələnməsinə yönəlmiş təşəbbüslər iki xalq arasında qarşılıqlı etimada əsaslanan çoxəsrlik dostluq ənənələrinin, habelə Azərbaycan-Rusiya strateji tərəfdaşlıq münasibətlərinin ruhuna ziddir və bu münasibətlərin inkişafında maraqlı olmayan qüvvələrin mənafelərinə xidmət edə bilər.** “Azərbaycan ictimaiyyəti, eyni zamanda Rusiyada yaşayan çoxmilyonlu Azərbaycan icması ümid edir ki, Rusiya Federasiyasının müvafiq qurumları obyektiv, ədalətli, iki ölkənin milli maraqlarına uyğun qərar qəbul edəcək və Rusiya azərbaycanlılarını öz ətrafında birləşdirən ÜAK bundan sonra da həmvətənlərimiz arasında mədəni- mənəvi birliyin və bütövlükdə Rusiya-Azərbaycan dostluğunun möhkəmlənməsində, ikitərəfli münasibətlərin inkişafında mühüm rola malik bir təşkilat kimi uğurla fəaliyyət göstərəcək” deyə, bəyanatda bildirilir.

Azərbaycan Milli Məclisinin deputatları səviyyəsində olan reaksiya isə kifayət qədər sərt tonu ilə seçilir. Məsələn, deputat Rasim Musabəyov Rusiyanı Azərbaycanın ən böyük diaspora təşkilatının fəaliyyətinə əngəl yaratmaqda suçlayıb. R.Musabəyov Azərbaycanda fəaliyyət göstərən Rusiya ictimai birliklərinin gündəmə gəlməsinin mümkünlüyünü deyib.(mənbə: minval.az).

Maraqlıdır ki, Ədliyyə Nazirliyinin müraciətindən bir gün əvvəl Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Rusiyanın ədliyyə naziri Aleksandr Konovalovla görüşüb. Görüş barədə qısa məlumat yalnız tərəflərin ədliyyə sahəsində ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə etməsindən ibarətdir. Amma böyük ehtimalla Azərbaycan səfiri məhz ÜAK-la bağlı yaranmış hüquqi problemləri müzakirə etmək üçün nazirlə görüşməyi zəruri bilib. Buna baxmayaraq, Rusiya tərəfi iki ölkə arasında gərginlik yaradacağı şübhə doğurmayan müraciəti Ali Məhkəməyə göndərib. Yeri gəlmişkən, Vahid Rusiya Partiyasında təmsil olunan Aleksandr Konovalov hələ Vladimir Putinin baş nazirliyi dövründən - 2008-ci ildən nazir işləyir. Ötən ilin yayında Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov da Moskvada səfərdə olub və rusiyalı həmkarı ilə görüşüb. Hökumətdə yeni adam olmayan Konovalovun rəhbərlik etdiyi nazirliyin bu addımı əlbəttə ki, ciddi narahatlıq doğurmaya bilməz.

ÜAK-ın qeydiyyatı ilə bağlı yaranmış vəziyyəti minval.az-a şərh edən rusiyalı siyasi texnoloq Denis Kokordinov hesab edir ki, təşkilatın qeydiyyatın ləğv edilməsi kimi bir təhlükə ilə üzləşməsində Rusiyadakı səfir Polad Bülbüloğlunun da məsuliyyəti var. Politexnoloq hesab edir ki, P.Bülbüloğlu təşkilatın fəaliyyətinə bəzi hallarda qısqanc münasibət göstərib, təşkilatın ictimai arenada nüfuzlu nümayəndələrinin ÜAK-dan uzaqlaşdırılmasına nail olub.

Heç kimə sirr deyil ki, Rusiyada azərbaycanlıların mütəşəkkil və güclü təşkilatının fəaliyyət göstərməsi ilk növbədə bu ölkədəki erməni diasporunun maraqlarına cavab vermir. Rusiyadakı erməni lobbisi və onun təsiri altında olan müəyyən rəsmi dairələr də ÜAK-ın fəaliyyətinin dayandırılmasına nail olmağa çalışırlar ki, nazirliyin müraciəti bunu bir daha sübut edir. Amma martın 3-dən, yəni Ədliyyə Nazirliyinin müraciətindən ötən müddətdə Kreml rəhbərliyi bu ciddi siyasi yanlışın qarsısını almaq üçün heç bir çaba göstərmir. Eləcə də hər mümkün məqamda iki ölkə arasında strateji tərəfdaşlıqdan danışan Rusiyanın Bakıdakı səfirliyi də nədənsə susur. Bu isə ağıllara, “əcəba, bu Azərbaycana yönəlmiş aşkar təzyiqin arxasında Kreml rəhbərliyi dayana bilərmi” sualını gətirir.

Rusiyanın Azərbaycandan narazılığını adətən bu cür təşkilat oyunları ilə gündəmə gətirməsi yeni fakt deyil. Yada salaq ki, 2013-cü ildə Kremlin xeyir-duası ilə Rusiya Azərbaycanlıları Təşkilatları İttifaqı ətrafında da ciddi oyunlar qurulmuşdu. Qeyri-rəsmi olaraq “Milyarderlər ittifaqı” adlanan qurum rəsmi Bakının siyasətini hədəfə almışdı ki, tezliklə Azərbaycanın sabiq vitse-primyeri Abbas Abbasovun rəhbərlik etdiyi təşkilatın əslində Kremlin müəyyən dairələrinin əlində oyuncaq olduğu üzə çıxdı. İndi Azərbaycana qarşı qurulmuş yeni “hüquq oyunu”nun arxasındakı qüvvələri ifşa etmək Moskva rəhbərliyinin üzərinə düşür. Əlbəttə ki, özləri bu oyunun bir parçası deyillərsə...

❑ **“Yeni Müsavat”**

# ABŞ-Rusiya düyünü niyə açılmır?



**Hüseynbala SƏLİMOV**

**İndi Rusiya tərəfdə böyük bir peşmançılıq hökm sürür. Bu ölkənin təhlilçiləri ciddi şəkildə yazırlar ki, ABŞ-Rusiya münasibətləri sözün əsl mənasında demokratlarla respublikaçılar arasında hakimiyyət savaşına çevrilibdir.**

Amma bu, real vəziyyəti bir qədər təhrif etməkdir. Məsələ ondadır ki, Konqresdə məhz respublikaçılar üstünlük təşkil edir.

Üstəlik də hörmətli D.Trampın adamlarının Rusiya ilə əlaqələrini araşdıran kəşfiyyat komitəsinə də başqa partiyanın deyil, elə Trampın özünün də aid olduğu respublikaçılar partiyasının təmsilçisi başçılıq edir. Deməli, məsələ artıq ənənəvi partiyalararası çəkişmə çərçivəsindən çıxıbdır, çünki respublikaçıların bir hissəsi Trampa heç demokratlardan az müxalifətçilik etmirlər...

Problem tək bununla da bitmir. Bu günlərdə ABŞ-ın dövlət katibi R.Tillersonun Rusiyanı təcavüzkar dövlət adlandırması Rusiya siyasət adamlarını bir az da məyus edib. Beləliklə, V.Putin nə qədər D.Trampla görüşə hazır olduğunu bildirsə də ABŞ-da buna qarşı nəinki etinasızlıq, hətta bir az da soyuqluq duyulur.

Bəli, D.Tramp seçki vaxtı dediklərini reallaşdıra bilmir. Böyük ehtimalla gələcəkdə də edə bilməyəcəkdir. Hələ seçki vaxtı dəfələrlə yazmışdıq ki, ABŞ siyasətində institusionallıqla personallığın sərhədini bilmək və bir az təəccüblü görünsə də, Amerika siyasətinin məğzini tutmaq istəyirik...

İndi daha çox “institusionallıq modeli”nin üstünlük təşkil etdiyini duyuruq. Amma yekun söz demək üçün hələ tezdir. Bir az da gözləmək lazım gələcək. Hər halda, Tramp qarşısındakı maneəni hiss edir və belə güman etmək olar ki, həmin maneə onun əsl kabusuna çevriləcəkdir.

Qalan məsələlər prinsipcə, aydındır. Bu il Avropda da müəyyən məsələlərə aydınlıq gəlməlidi. Bu da elə yaxınlarda olacaq. O vaxt “yeni” Amerika ilə “yeni” Avropanın münasibətlərinə aydınlıq gələcək.

Burada mən bir məsələni də qeyd etmək istərdim. Vahid Avropa ideyasının tarixi yüz illərlə ölçülsə də, prosesin əsas “mühərriki” uzun müddət başqa bir ölkə yox, ABŞ olub.

Böyük ehtimalla ABŞ artıq özünün bu missiyası haqda daha real düşünməyə başlayıb, çünki tamam müstəqil Avropa ona da gərək deyil. Təsadüfi deyil ki, D.Trampın görüşdüyü ilk simalardan biri də məhz İngiltərənin baş naziri T.Mey oldu. Güman, İngiltərənin AB-dən çıxması müəyyən mənada ABŞ-ı da narazı salmır. Çünki hələ Çörçillin vaxtından İngiltərə ABŞ-la sinxron siyasət yürüdüb.

Bir daha deyirik ki, birləşmiş Avropa çox müstəqil olmaq istəyir. Məsələn, bu günlərdə ABŞ rəsmisi R.Tillerson Türkiyəyə də səfər etdi. Dövlət katibinin bu səfəri bir daha göstərdi ki, Yaxın Şəqrdəki bəzi siyasi nüanslara, eləcə də F.Gülən məsələsindəki ziddiyyətlərə baxmayaraq indi də Türkiyə ABŞ üçün əsas müttəfiqlərdən biri olaraq qalır. Avropa isə bunu heç cür anlamaq istəmir, Türkiyəyə qarşı elə siyasət yürüdür ki, sanki Türkiyə heç NATO üzvü deyil, sanki onların müttəfiqi deyildir. Elə buna görə də ABŞ-la Avropa arasında bir azacıq soyuqluğun yaranmasını başa düşmək elə də çətin olmaz. Təbii ki, onlar arasındakı indi yaranmış münasibətlərin yalnız Türkiyəyə görə olduğunu zənn etmək məsələni təhrif etmək olardı. Əsas detal odur ki, birləşmiş Avropa çox müstəqillik arzusundadır...

Doğrusu, “İl çox maraqlı olacaqdır” yazmaqdan artıq yorulmuşuq. Demirik ki, belə yanaşma özünü doğrultmadı. Xeyr, doğrultdu. Amma müəyyən siyasi düyünlərin açılmasına ehtiyac vardır. Proses isə yubanır. Hər bir halda, adamı belə bir detal sakitləşdirir ki, əbədi heç nə yoxdur...

Bütün hallarda belə hesab etmişik ki, ABŞ - ın Cənubi Qafqaz siyasətində böyük dəyişiklik olmayacaq. Bu vaxta qədərki ABŞ rəhbərləri Cənubi Qafqazdakı münaqişələrin çözülməsi üçün nə etmişdi ki, Tramp da durub bunu etsin?..

Amma Rusiya qarşısında bir direniş, müqavimət görməyəndə çox qorxulu olur. Ermənistan artıq Azərbaycanı “İsgəndər”lərlə hədələyir. Təbii ki, bunu elə də ciddi qəbul etmirik, çünki həmin raketlər sadəcə, Rusiyanın Ermənistandakı hərbi bazasında yerləşib, üstəlik Ermənistanla Rusiya, səhv etmiriksə, birgə hərbi komandanlığa keçib.

Ermənistanda da hərbi qərarlara artıq onun hərbi naziri deyil, elə Rusiyanın müdafiə naziri - S.Şoyqu sərəncam verir. Ermənistan isə bu prosesdə özünün yiyəsini görüb ürəklənən qulağıkəsik köpəyə bənzəyir.

Ona görə də təhlükə yalnız Rusiyadan gələ bilər. Rusiyanın ambisiyalarınısa yalnız ABŞ cilovlaya bilər. Biz də elə bunu gözləməkdən yorulmuşuq...

YENİ MÜSAVAT
N 68 (6682) 4 aprel 2017



# İqtidarla müxalifətin “pambıq savaşı...”

## Bəxtiyar Sadıqov: “Onlar xalqı düşünən olsaydılar...”

**Azərbaycan hökuməti ölkədə kənd təsərrüfatının əsas sahələrindən biri kimi pambıqçılığın inkişafı istiqamətində son zamanlar ciddi addımlar atır. Bunu ölkə prezidenti İlham Əliyevin martın sonlarında Saatlıya səfəri və oradakı çıxışında pambıqçılığın inkişafının vacibliyi ilə bağlı söylədiyi fikirlər bir daha sübut edir.**

Ölkə iqtidarının kənd təsərrüfatının bu sahəsinə ayırdığı diqqət son günlərdə sosial şəbəkələrin əsas müzakirə mövzularından birinə çevrilib. Müxalif fəallar hakimiyyətin bu siyasətini öz statuslarında lağa qoyur, kinayəli şəkildə mövqelər bildirirlər. Hökumətin pambıqçılıq siyasətində orta əsrlər dövrünə qayıtdığı barədə fikirlər səslənir.

**YAP-çı deputat, “Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov** “Yeni Müsavat”a açıqlamasında pambıqçılığın inkişafı ilə bağlı görülən işləri ələ salanlar barədə sərt danışdı: “Qədim bir alman məsəli var. Deyirlər ki, sən öz yolunla get, qoy nə deyirlər desinlər. Dövlət başçısı İlham Əliyev Azərbaycan rəhbərliyinə gəldiyi gündən ölkəmiz yüksələn xətlə inkişaf etməkdədir. Bu gün dünyada bir böhran var, bunun nəticəsində ölkəmizdə də müəyyən çətinliklər var. Azərbaycan bir sıra hadisələri önləyir, ölkəmizdə ”2020-Gələcəyə baxış" konsepsiyasında neftsiz dövrə aid qabaqlayıcı tədbirlər nəzərdə tutulub. Manatın devalvasiyasından sonra bu proses bir qədər tez başladı. Hazırlığımız başa çatmadığına görə bizim üçün də müəyyən çətinliklər oldu. Ölkə rəhbəri hansısa bir siyasəti müəyyənləşdirir. Bu zaman müxalifətə fikir verilmir. Çünki onlar xalqı düşünən olsaydılar, iqtidarın gördüyü yaxşı işləri qeyd edərlər. Amma indiyə qədər belə hala rast gəlməmişik. Sosial şəbəkə adlanan söz meydanı var. Orada savadı, səriştəsi olmayan, dövlət siyasətindən başı çıxmayan insanlar var. Onlar da müxtəlif savadsız rəylər söyləyirlər. Kim necə bilirsə, elə də danışır. Azərbaycan demokratik ölkədir, belə fikirlərə heç kəsə qadağa qoymur".

**İqtidar deputatı pambıqçılığın Azərbaycanın ənənəvi sahəsi olduğunu qeyd etdi:** “Tarix boyu xalqımız pambıq becərib, yüksək səmərə götürüb. Azərbaycanın elə regionları var ki, orada işsizliyin səviyyəsi daha yüksəkdir. Sirr deyil ki, bəzən insanlar iş tapmaq üçün ölkə paytaxtına gəlirlər, yaxud ölkə xaricinə gedirlər. Bu baxımdan, belə sahələrdən uğurlu sahələr yoxdur. Bunlar sovet dövründə sınaqdan keçirilmiş təcrübədir. Bu gün pambıqçılığa başlanılıbsa, dövlət boşuna bu işlərə start verməyib. Bu istiqamətdə texnikalar alınıb, sahibkarlara kreditlər verilib, su anbarları tikilib. Sahibkarın məhsul istehsal etdikdən sonra məhsulunun batmaması üçün mühüm işlər görülür. Artıq dövlət həmin məhsulları bazara çıxarmağı öz üzərinə götürüb. Bu işlər insanların güzəranlarının yaxşılaşdırılmasına, çəkdikləri əziyyətin bəhrəsini görməyə xidmət edir. Bunun dövlət üçün də maraqlı tərəfləri çoxdur. Dövlət bununla xaricə məhsul çıxarır, valyuta gəliri əldə edir. Eyni zamanda burada emal sənayesi yaranır. Bizim böyük şəhərlərimiz, bu şəhərlərdə bacarıqlı xanımlarımız var, həmin xanımlar ailələrinin dayağıdırlar. Onlara öz şəhərlərində uyğun işlər lazımdır. Burada söhbət xalqın zəhmət çəkib qazandığı halal gəlirdən gedir. Prezidentimiz Saatlıda məxsusi demədi ki, məhsul əllə yığılmalıdır. Dedi ki, o yerdəki insanlar pambığı əllə yığmağı istəyirlər, orada onlara şərait yaratmaq lazımdır. Hansısa bir işi lağa qoymaq, variantlar söyləmək çox asandır. Amma iş görmək, insanlara çörək vermək asan məsələ deyil. Azərbaycan iqtidarı öz vətəndaşının qayğısına qalır, onun firavan yaşayışına şərait yaradır, yüz minlərlə iş yerinin açılmasına çalışır. Dövlətin özünün ağıllı, uzaqgörən siyasəti var. O insanlar ki, işləməyə yox, danışmağa üstünlük verirlər, nə qədər istəyirlər danışsınlar, onsuz da eləlari danışmaq üçün yaranıblar. Ölkəmizdə buna da şərait var. Çünki Azərbaycanda həm də söz azadlığı hökm sürür”.

❑ Cavanşir ABBASLI

# İqtisadçı “yaxın 1-2 il ərzində bankların əksəriyyəti bağlanacaq” deyir

## “Təəssüf ki, bank sistemini idarə edənlərin kifayət qədər savad və səriştəsi yoxdur”

**Bank sektorundakı durğunluq mətbuata da yansayıb. Artıq banklarla bağlı xəbərlərə nadir hallarda rast gəlinir. Gündəmdə olmasa belə, bank sektorunda problemlər davam edir. Qaytarılmayan kreditlərin həcmi 1,5 milyardı ötüb. Bağlanmış banklarda əmanətlərin qaytarılması prosesi davam edir. Demək olar ki, bütün banklar kredit verilməsini dayandırıb.**

İqtisadçılar isə bank sektorundakı durğunluğun səbəbini bir neçə amillə izah edirlər.

**İqtisadçı ekspert, uzun illər bank sektorunda çalışmış Əkrəm Həsənov** “Yeni Müsavat”a açıqlamasında bank sektorunun hazırkı durumunu dəyərləndirdi.

O bildirdi ki, hazırda bağlanmış banklarda sığortalanmış əmanətlər qaytarılır: “Təəssüf ki, bəzən dollar əmanətlərini də manatla qaytarırlar deyə əmanətçilər məzənnə fərqində itirmiş olur. Amma hər halda, vəsaitlərin batmasındansa manatla qaytarılması daha yaxşıdır. O da düzdür ki, əmanətlər Əmanətlərin Sığortalanması Fondunun öz vəsaiti deyil, Mərkəzi Bankın kreditləri hesabına qaytarılır. Buna görə də sual yaranır ki, 10 ildən çox müddət ərzində bu fond banklardan yığdığı milyonlarla vəsaiti necə idarə edib, hara sərf edib ki, pulu tez qurtardı və kreditə möhtac oldu. Hər halda, hüquq-mühafizə orqanları bu məsələni ciddi araşdırmalıdır”.

**İqtisadçı sığortalanmayan əmanətlərlə bağlı vəziyyətin ürəkaçan olmadığını da vurğuladı:** “O ki qaldı vətəndaşların sığortalanmamış əmanətlərinə və hüquqi şəxslərin müflis banklardakı cari hesablarda qalmış vəsaitlərinə, burada vəziyyət çox acınacaqlıdır. Məlum olduğu kimi, onlar ödəniş növbəliliyində sonuncu yeri tutur. Yəni müflis bankların əmlakı hesabına əvvəlcə Mərkəzi Bankın kreditləri qaytarılacaq, sonra fond zəhmət haqqını götürəcək, daha sonra işçilərin maaşı veriləcək, ondan sonra dövlət vergini və s. götürəcək, nəhayət, nəsə qalsa, sonda sözügedən şəxslərə vəsaitlərinin heç olmasa bir qismi qaytarılacaq. Buna nəinki illər lazımdır, bu prosesin düzgün aparılmasından da çox şey asılıdır. Buna görə də qabaqcıl ölkələrdə bu hallarda kreditorların ümumi yığıncağı yaradılır ki, o, ləğvetmə prosesinin şəffaf və düzgün aparılmasına nəzarət etsin. Bizdə isə kreditorlara heç məlumat belə verilmir ki, müflis bankların nəyi var, nəyi yox. Palata məlumat yayır ki, guya kreditorların ümumi yığıncağı yox, komitələri yaradılacaq. Amma bu da real yaradılmır. Müflis bankların olan-qalan əmlakını satandan sonra yaratmağın nə mənası?”

**Əkrəm Həsənov onu da qeyd etdi ki, bu kimi hallar iş adamlarını banklardakı hesablarından vəsaitləri geri götürməyə sövq edir:** “Ola bilər ki, hansısa qiymətli əmlakları gözdən uzaqda satmaq istəyirlər ki, tez-tələsik formal olaraq ucuz qiymətə versinlər, artıq qalan hissəsini isə ciblərinə qoysunlar. Bu, ittiham deyil, şübhədir. Çünki baş verənlər belə şübhələrə tam əsas verir. Ortada bank sisteminə etimad məsələsidir. Fikir verin, sahibkarlar və hüquqi şəxslər banklarda pul saxlamağa qorxur, dərhal nağdlaşdırırlar. Niyə? Çünki sabah pul qoyduqları bankın da müflis olmasından və bu zaman ləğvetmə prosesinə təsir edə bilməyəcəklərindən qorxurlar”.

**Ekspertin sözlərinə görə, bank sektorunun ən ciddi problemi qaytarılmayan kreditlərdir:** “Digər ciddi məsələ problemli kreditlərin həcminin durmadan artmasıdır. Sahibkarlar bir-bir müflis olur, işlərini bağlayır, işsizlik artır, gəlirlər düşür, qiymətlər artır və s. Bütün bunlar borclular tərəfindən öhdəliklərini icra etməyə mane olur. Dollar kreditləri məsələsi də həll olunmur. Heç cari məzənnə ilə də onları manata çevirmirlər. O cümlədən ona görə ki, Mərkəzi Bank manat kütləsini sıxıb və dövriyyədə manat çox azdır. Manatın dəyərinə etibar olmadığı üçün kreditlərin çoxunu ödəyən yoxdur. Eyni zamanda bank sahibləri və inzibatçıları tərəfindən yaradılmış süni problemli kreditlər məsələsi də həllini tapmır. Yəni söhbət faktiki oğurladıqları, mənimsədikləri vəsaitdən gedir. Palata müvafiq yoxlamaları aparmaqdan çəkinir. Problemli kreditlərin məntiqi sonu bu il də bir neçə bankın müflis olması olacaq. Artıq bir neçə bank aylarla əmanətləri qaytarmır və Palata da həmin banklara qarşı tədbir görmür. Əvvəllər bağlanan banklar da bu yolu keçmişdi. Buna görə də yaxında bir neçə, yaxın 1-2 il ərzində isə bankların əksəriyyəti bağlanacaq. Bütün bunların qarşısını almaq üçün sərt və şəffaf siyasətin həyata keçirilməsi tələb olunur. Təəssüf ki, bank sistemini idarə edənlər bunun üçün kifayət qədər nə savada-səriştəyə, nə düzgünlüyə, nə də cəsarətə malik deyil”.

❑ Nərgiz LİFTİYEVA

# “Manat xeyli müddət sabit qalacaq”

## Ekspert: “Xarici valyutaya tələb minimuma enmiş vəziyyətdədir”

**Bir çox ekspertlər Novruz bayramı sonrası və ya mart ayının sonunda manatın məzənnəsində kəskin ucuzlaşma baş verəcəyi ilə bağlı proqnozlar verirdilər. Lakin hazırkı məzənnə onu deməyə əsas verir ki, bu proqnozlar özünü doğrultmadı. Hazırda manatın dollara qarşı məzənnəsi 1.72 -dir.**



Bəs görəsən, bundan sonra da manatın məzənnəsi möhkəmlənməkdə davam edəcəkmi? Manatın kursu ilə bağlı arxayınlaşmağa dəyərmi?

Bu sualları cavablandıran Pərviz Heydərov “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Azərbaycanda sərbəst maliyyə bazarı olmadığından manatın məzənnəsi ilə bağlı bədbin proqnozların əsası yoxdur: “Əvvəla, diqqət yetirsəniz, manatın məzənnəsi ilə bağlı bədbin proqnozlar verənlərin indi səsləri çıxmır. Sanki ”qurbağa gölünə daş atmısan"... Çünki onların əsaslandıqları arqumentlər cəfəng fikirlərdən başqa bir şey deyildi. Bu adamlar hələ də manatın real bazar dəyərini - məzənnəsini tapmalı olduğundan danışırlar. Söhbət hansı bazardan gedir, aydın deyil. Məlumdur ki, bizdə sivil bazar iqtisadiyyatı mexanizmi fəaliyyət göstərən ölkələrdə olduğu kimi müvafiq maliyyə bazarı mövcud deyil. Üstəlik, real olaraq, iqtisadi aktivlik sıfır vəziyyətindədir. Manat real bazar dəyərini harda və necə tapmalıdır?"

**Pərviz Heydərov manatın möhkəmlənməsi fikri ilə də razılaşmır:** “Məsələ, sadəcə olaraq, belədir: Birincisi, xarici təsirlər, yəni neftin qiyməti, o cümlədən qonşu ölkələrdə, ümumiyyətlə, əsas ticarət tərəfdaşlarımızda devalvasiya prosesləri səngiyib və bununla əlaqədar olaraq da təzyiqlər azalıb. İkincisi, məlum olduğu kimi, hökumət bütün istiqamətlər üzrə qənaətə keçməklə mövcud büdcə-vergi siyasətini xeyli dərəcədə dəyişib. Üçüncüsü, ölkədə pul-kredit siyasəti daha da sərtləşdirilib. Üstəlik də bank sektoru da hazırda ”iflic vəziyyətində" olduğundan real sektoru onsuz da maliyyələşdirə bilmir. Dördüncüsü, valyuta alqı-satqısı mexanizminin özü də tamamilə yeni formaya transformasiya edilib. Söhbət Mərkəzi Bankın bu ilin yanvarın 12-dən valyuta hərraclarının keçirilməsi qaydalarını növbəti dəfə dəyişdirməsindən, yəni onu daha yeni formaya doğru təkmilləşdirməsindən, həmçinin kommersiya bankları üçün xarici valyuta alışı və satışı üzrə tətbiq olunan mənfi və müsbət 4 faizlik marjanı da ləğv etməklə manatın “tam üzən məzənnə” rejiminə keçidini təmin etməsindən gedir. Beşincisi də, ölkədə dollarizasiya prosesi də zirvə nöqtəyə çatdığından xarici valyutaya tələb minimuma enmiş vəziyyətdədir".

**İqtisadçı Pərviz Heydərov hesab edir ki, manat hələ bir müddət hazırkı məzənnə ətrafında sabit qalacaq:** “Odur ki, manatın sanki hətta bahalaşmağa doğru start götürdüyü nəzərə çarpmaqdadır. Lakin bu, aradabir qeydə alınan tempdir, yəni müvəqqəti ”qığılcımlardır", bütövlükdə valyuta bazarında vəziyyət sabit xarakter daşımaqdadır. Və bu mənzərə hələ xeyli müddət dəyişməz olaraq qalacaqdır..."

❑ Nərgiz LİFTİYEVA

Yeni MÜSAVAT
N 68 (6682) 4 aprel 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Ermənistandakı "seçkilər" Qarabağ məsələsinin dinc həllini quyunun dibinə atdı

Sərkisyan diqqəti seçki saxtakarlıqlarından yayındırmaq üçün Qarabağda vəziyyəti gərginləşdirə bilər; hərbi ekspert Üzeyir Cəfərov təxribat ehtimalı ilə bağlı xəbərdarlıq edir; **politoloq Elxan Şahinoğlu:** "Sərkisyanın "qələbəsi" Ermənistanı uçuruma aparacaq"

**Ermənistanda keçirilən 2 aprel parlament seçkilərinin niyə məhz 2016-cı ilin aprel müharibəsinin ildönümünə salındığı seçki adına yaraşmayan biabırçılıqların fonunda tam aydın oldu. Hakim Respublikaçılar Partiyasının parlamentdəki yerlərini təmin etməkdən, həmçinin "arzuolunmaz" blok və partiyaları qapı arxasında saxlamaqdan ötrü Serj Sərkisyan rejimi elə iyrənc saxtakarlıqlara əl atdı ki, hətta Amerikadan seçkini müşahidəyə gəlmiş erməni diasporunun üzvü belə heyrətini gizlədə bilmədi.**

Ermənistan Mərkəzi Seçki Komissiyasının yekun hesablamalarına görə, seçicilərin 49,12 faizi hakim partiyanın namizədlərinə "səs verib". Komissiya sədri Tiqran Mukuçyan iddia edib ki, "gərgin" keçən hesablamaların sonucunda 4 blok və partiyanın parlamenti formalaşdırmaq hüququ qazandığı aydın olub. Serj Sərkisyanın rəhbərlik etdiyi Respublikaçılar Partiyasından əlavə "Tsarukyun" və "Çıxış" bloku, həmçinin Daşnaksütyun Partiyası parlamentə buraxılıb.

Bir çoxlarının gözləntilərinə rəğmən, Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın liderlik etdiyi "Konqres"-"EXP" bloku mandatsız qalıb. Ən əcaibi odur ki, ölkənin prezidenti olmuş, hətta ötən ilin aprel müharibəsindən sonra S.Sərkisyanın ayağına getdiyi Ter-Petrosyanın blokuna cəmi 25 mindən bir az artıq seçicinin səs verdiyi iddia olunub. Sabiq müdafiə naziri Seyran Ohanyanla bağlı vəziyyət bəllidir. Seçkiöncəsi Ohanyanın adamını "İqla" zenit-raket kompleksi qaçaqmalçılığında ittiham edib damlayan hakimiyyət keçmiş nazirin də başı üstündə kölgələr əsdirir.

İşğalçı ölkədəki seçkiləri müşahidə etmiş beynəlxalq nümayəndə heyətləri, xüsusilə də ATƏT, Avropa Parlamentindən gələnlər hələ ki yekun rəy verməyiblər. Ancaq MDB-dən olan belaruslu müşahidəçi iddia edib ki, ilk dəfə Ermənistandakı seçkilərlə bağlı ATƏT və MDB-nin rəyi üst-üstə düşüb. Lakin ölkədə o qədər geniş miqyasda saxtakarlıqlar olub ki, hətta prokurorluq da "gözdən pərdə asmaq üçün" 6 cinayət işi qaldırıb, 1 nəfər həbs edilib, 1600-ə yaxın fakt üzrə araşdırmalar aparılır. Əslində bu, "demokratiya" görüntüsü yaratmaqdır, Sərkisyan rejimi ölkəsini fəlakətə sürükləyən addım atıb. Ölkənin sabiq baş naziri Qrant Baqratyan da bu fəlakətlərdən xilas yolu kimi yeni hakimiyyət formalaşdırmağı təklif edib. "Biz hakimiyyətə gəlmək və Ermənistandakı mövcud vəziyyəti dəyişmək istəyirik. Ermənistanın normal, demokratik ölkə olması, insanların özlərini insan kimi hiss etmələri üçün biz bu oliqarxiya idarəçiliyindən qurtulmalıyıq" - sabiq baş nazir deyib.

Hakimiyyətin ac-yalavac saxladığı erməni seçicilər Robert Köçəryanın dediyi kimi, səslərini 8 dollara satmağa qərar veribsə, bu, onların öz işidir. Deməli, erməni xalqı taleyi ilə barışıb və "Qarabağ klanı"nın bundan sonrakı mərhələ üçün də vəd etdiyi fəlakətləri qəbul etməyə hazırdır. Lakin bu seçkinin Qarabağ məsələsinin həllinə bundan sonrakı təsiri baxımından bizi maraqlandıran məqamlar var. Son nəticədə qərbyönlü və Qarabağda sülhün tərəfdarı olan və ölkəni növbəti fəlakətlərdən sığortalamaq üçün təcili güzəştli Qarabağ anlaşması əldə etməyə çağıran Levon Ter-Petrosyanın parlament kandarında saxlanılması Ermənistanda müharibə tərəfdarlarının yola davam edəcəyinə şübhə yeri qoymur. Düzdür, bir sıra ekspertlər Qarabağdakı cinayətləri Sərkisyandan az olmayan Ter-Petrosyan və S.Ohanyanın, sadəcə, Qərbə xoş gəlmək və yad torpağında əsgər itirmək istəməyən sadə xalqın səsini qazanmaq üçün reveranslar etdiyini zənn edirdi. Şübhəsiz ki, bu arqument əsassız deyildi.

Amma nəticə budur ki, seçki ərəfəsində Qarabağdan Azərbaycanı işğal altındakı Xankəndi şəhərindən "İsgəndər" raketi ilə hədələyən, müharibəyə təhrik edən Sərkisyan yeni hökuməti formalaşdırmaq imkanı qazandı. Məsələ aydındır, S.Sərkisyan hətta sifariş yerinə yetirən "exit poll"un açıqladığı nəticələrlə az qala üst-üstə düşən nəticəni partiyasının qarşısına yazdırdı. Amma istənilən halda bu, erməni xalqının da seçimi sayılır, əks təqdirdə, xalq üsyanının şahidi olardıq.

Növbəti çoxluğa malik olan Qagik Tsarukyan və Ovik Abramyan cütlüyünün "Tsarukyan" bloku da Rusiyaya bağlı qüvvə kimi xarakterizə edilir. Deməli, Avropa ilə əməkdaşlıq edəcəyi barədə iddialar səsləndirib sonda Rusiyaya, Putinin hüzuruna gedən S.Sərkisyan adı gələcəkdə baş nazir olmağa şanslı namizədin Q.Tsarukyanın blokuna yaşıl işıq yandırmaqla, əvəzində qərbmeyilliləri kənarda saxlamaqla Moskvanın əlaltısı olduğunu isbat etdi.

Bu arada Startfor təşkilatı da Rusiyadakı seçkilərin nəticələrini Rusiya-Ermənistan hərbi münasibətlərinin ruhuna uyğun nəticə kimi qiymətləndirib. Təşkilatın da vurğuladığı kimi, Rusiya onsuz da Ermənistanda antirus partiyasının irəli çıxa biləcəyindən narahat deyildi. Görünür, seçkinin nəticəsi Kremli o dərəcədə məmnun edib ki, elə səhəri gün prezident Putin Ermənistan-Rusiya diplomatik əlaqələrinin 25 illiyi ilə bağlı İrəvana bələğətli bir məktub yollayıb. Belə olan şəraitdə Qarabağ məsələsinin dinc yolla çözülməsi imkanları tam qapanmış olur. Artıq müharibə ritorikasını özünün həyat devizinə çevirmiş S.Sərkisyan 2018-ci ildə, prezident səlahiyyətləri bitəndən sonra da hakim partiyanın sədri olaraq iddialarından əl çəkməyəcək.




**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu Sərkisyanın öz hakimiyyətini möhkəmləndirmək istiqamətində növbəti addım atdığını düşünür. "Yeni Müsavat"a açıqlamasında o bildirdi ki, parlamentli respublika şəraitində o, ya özü baş nazir olacaq, ya da əlaltılarından birini təyin edəcək. Ekspert şübhə etmir ki, seçkilər Rusiya istəyən nəticələrlə sonuclandı:** "Ancaq Sərkisyanın bu "qələbəsi" Ermənistanı daha çox uçuruma aparacaq. Çünki onun hakimiyyətini davam etdirməsi iki ölkə arasında müharibə ehtimalını artıracaq".


Elxan Şahinoğlu


Üzeyir Cəfərov

**Politoloq bu fikirdədir ki, Sərkisyanı müharibədə məğlub etməklə, Ermənistan müxalifətini hakimiyyətə ancaq Azərbaycan ordusu gətirə bilər. O, 2 aprel nəticələrini təəccüblü saymır:** "Ermənistanda gözlənilən baş verdi. Separatçı Qarabağ klanı Ermənistan parlamenti üzərindəki nəzarətini gücləndirdi. 2 aprel parlament seçkisinin nəticəsindən fərqli heç nə çıxmadı. Prezident Serj Sərkisyanı sərt tənqid edən hər iki müxalif bloku parlamentdən kənarda qaldı. Halbuki müxalifət adına keçirdikləri mitinqlərdə kifayət qədər etirazçı toplaya bilirdilər. Buna baxmayaraq, parlamentə müxalifət adına hakimiyyətlə bir çox dəyərləri bölüşdürən "Çiçəklənən Ermənistan" və Daşnaksütyun partiyaları düşdülər. Bu nəticələri necə dəyərləndirmək lazımdır? Birincisi, 20 ildir Ermənistanda hakimiyyəti nəzarətdə saxlayan separatçı Qarabağ klanı yaxın illərdə iqtidarını qoruyacaq. Konstitusiya dəyişdiyindən, əsas rol parlamentə və hökumətə keçir. Serj Sərkisyan hər ikisi üzərində nəzarətini saxlayacaq. Bu, o vaxta qədər davam edəcək ki, Ermənistan cəmiyyəti inqilab və ya silah gücünə bu hakimiyyəti devirməsin. Əks halda, indiki klan "seçki yolu ilə" hakimiyyətdən gedən deyil".

**Ekspert şübhə etmir ki, Ermənistan müxalifəti seçki nəticələrinə hansısa formada etiraz edəcək:** "Ancaq bunun ümumi nəticəyə təsiri olmayacaq. Sərkisyan prezident seçkisində onlarla vətəndaşını güllələbaran etmişdi. İndi də lazım gəlsə vətəndaşlarının qanını tökər, ancaq geri addım atmaz. İkincisi, Ermənistanda parlament seçkisinin nəticəsi Qarabağ danışıqlarında irəriləyişin olmayacağına işarədir. İşğal davam edəcək və Sərkisyan əvvəlkitək status-kvonu uzatmağa çalışacaq. Ermənistanda Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılmasının vacib olduğunu düşünən siyasətçilər var. Ancaq biz nə vaxtsa onların hakimiyyətə gələcəyini gözləyə bilmərik. Vaxt gedir. Qarşımızdakı eyni qüvvədir və onunla danışmağın yolu bəllidir. Sərkisyan ancaq güclə hesablaşır. Güc isə Azərbaycan ordusudur".

**Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov da hesab edir ki, son sözü silah deməlidir:** "Beləliklə, cinayətkar Serj Sərkisyan öz məqsədlərinə nail oldu. Seçkilər çox böyük pozuntu və saxtakarlıqlarla müşayiət olundu və hesab edirəm ki, seçki bitsə də, qarşıda çox böyük gərginliklərin olacağı qaçılmazdır. Şəxsi qənaətimə görə, bundan sonra da Qarabağ münaqişəsi ətrafında daha da ciddi vəziyyət davam edəcək. Seçkilərin saxta nəticələrindən diqqəti yayındırmaq və daxildə gərginliyin saxlanması üçün Sərkisyan və yaxın ətrafı çalışacaq ki, qoşunların təmas xəttində təxribat hərəkətləri törətsinlər. Belə bir şəraitdə bizim edə biləcəyimiz yeganə yol Silahlı Qüvvələrin döyüş hazırlığının daha da artırılması və veriləcək əmrlərə hərtərəfli hazır olmaqdır. Bundan sonra da Ermənistanın hazırkı rəhbərliyi çalışacaq ki, Qarabağla bağlı status-kvo dəyişməz qalsın. Prinsip etibarı ilə bizə əvvəldən də bəlli idi ki, 20 ildən artıq müddətdə Qarabağda işğalçılıq siyasətini həyata keçirən ermənilər havadarlarının göstərişlərinə əsasən yenə əvvəlki kimi fəaliyyət göstərməyə davam edəcəklər. Ötən ilin aprel hadisələrində yaşadıqları məğlubiyyət sindromu Ermənistanın siyasi-hərbi rəhbərliyini çox qorxuya salıb. Və onlar bərk narahatdırlar ki, Azərbaycan bütün mümkün vasitələrdən istifadə edəcək və ərazi bütövlüyümüz danışıqlar yolu ilə də olmasa, güc amilindən istifadə edilərək tam bərpa olunacaq".

**Ü.Cəfərov xatırlatdı ki, bu ilin əvvəllərində Silahlı Qüvvələrimiz Ermənistan ordusuna davamlı surətdə çox ciddi cavab zərbələri endirdi:** "Özü də hər dəfə erməni hərbçilərdən ya bir, ya da iki əsgər və zabit cəhənnəmə vasil edilirdilər. Düşünürəm ki, bütün cəbhə boyu bu işi daha da aktiv şəkildə davam etdirmək lazımdır. Bu itkilər isə Ermənistanda daxildə çox böyük narazılıqlara gətirib çıxaracaq. Bizə lazımdır ki, həm cəbhədə, həm də bədnam qonşularımızın öz daxilində daim narazılıqlar və aktiv etirazlar baş versin. Bəlkə onda bu həyasızlar öz havadarlarına başa sala bildilər ki, onları bu ağır missiyadan xilas etsinlər, yeni torpaqları öz qanuni sahibinə - Azərbaycana qaytarsınlar".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

**Amerika və Rusiya arasında son illərdə yaranan və inkişaf edən soyuq münasibətlərin artıq savaş elementləri görünməyə başlayıb. Rəsmi Vaşinqton yavaş-yavaş Kreml sərhədlərinə doğru yan alır. Bir ay öncə 8 min NATO əsgərinin Rusiya sərhədinə yaxın 160-300 kilometr məsafədəki Finnmark bölgəsində təlimlərə başlaması və təlimlərdə 700 ABŞ və ingilis əsgərinin iştirakı bir çox mətləblərdən xəbər verdi. O zaman ABŞ Quru Qoşunları, ABŞ Donanması və İngilis Kral Donanmasının iştirak etdiyi təlimlər Rusiya hakim dairələrinin qəzəbinə tuş gəlmişdi.**

# ABŞ tankları Moskva sərhədlərində - Rusiya-Amerika müharibəsi başlayırmı...

## Elçin Mirzəbəyli: “Tərəflər hərdən bir-birilərinin nəbzini yoxlayırlar”

Son olaraq da ABŞ tanklarının Moskvanın 700 kilometrliyində məsafə tutmaları barədə xəbərlər yayılıb. Bu, Amerika tarixində ilkdir ki, ABŞ tankları bu qədər şimal qonşumuza yaxınlaşıblar.

Ekspertlər həyəcan təbili çalır. Proseslər bu şəkildə davam edərsə, Vladimir Putin hakimiyyətinin hərəkətə keçəcəyi və sonunda iki supergücün üz-üzə gələcəyi ehtimalları getdikcə artmaqdadır. Müharibə olarsa, bunun üçüncü dünya müharibəsi olacağına indidən kimsədə şübhə qalmayıb.

Azərbaycanlı ekspertlər ölkəmiz acısından da proseslərin çox təhlükəli hala gəldiyini qeyd edirlər. Cənubi Qafqazda sabitliyin əsas qarantiyası olan Rusiyanın savaşa girəcəyi təqdirdə, bütün regionda təhlükəsizliyin pozulacağını təxmin etmək elə də çətin deyil.

**Politoloq Elçin Mirzəbəyli hesab edir ki, ABŞ tanklarının bu qədər Rusiya sərhədlərinə yaxınlaşmalarında qeyri-adi heç nə yoxdur:** “ABŞ tanklarının Moskvadan 700 km, Belarus sərhədindən 420 km məsafədə Estoniyada yerləşdirilməsində qeyri-adi heç bir şey yoxdur. Bu, NATO-nun şərq sərhədlərinin möhkəmləndirilməsi ilə bağlı artıq uzun illərdir ki, həyata keçirilən tədbirlərin tərkib hissəsidir. ABŞ tankları Estoniyaya NATO qoşunlarının tərkib hissəsi kimi daxil olub. Estoniya NATO ölkəsidir. Rusiya KİV-nin, yumşaq desək, ənənəvi "saçyoldu" kampaniyasına da bir o qədər önəm vermək lazım deyil. Rusiya NATO ölkələrinin sərhədlərinin bir neçə kilometrliyində hərbi təlimlər keçirə bilər, hətta Alyans üzvü olan ölkələrin hava sərhədini poza bilər, amma NATO keçirə bilməz? Rusiyanın Ermənistanda NATO üzvü olan Türkiyənin sərhədlərinin yaxınlığında hərbi bazası var və bu ərazidə də tez-tez hərbi təlimlər keçirir. Rus mətbuatının hay-küyündən belə anlaşılır ki, Rusiyaya olar, amma başqalarına olmaz. Əslində bu,



dolayısı ilə narahatlığın, qorxunun etiraf olunmasıdır. NATO ölkələri şərq sərhədlərinin möhkəmləndirilməsinə 3-4 milyard dollar civarında vəsait xərcləməyi nəzərdə tutublar. Rusiya isə bu prosesin qarşısını ala bilməyəcək. Atılacaq aqressiv addımlar isə daha sərt reaksiyalarla müşayiət oluna bilər. Bu prosesin ABŞ-Rusiya qarşıdurmasının yeni mərhələsi kimi qəbul edilməsinin də tərəfdarı deyiləm. Çünki NATO-nun Şərq sərhədlərinin möhkəmləndirilməsi prosesi xeyli öncə, Polşa və Rumıniyada raket əleyhinə müdafiə sistemlərinin qorunması barədə razılığın əldə olunmasından sonra başlayıb. Baltik dənizi hövzəsinin təhlükəsizliyinin təmin olunması Avropa İttifaqı və quruma üzv olan ölkələrin NATO üzrə tərəfdaşları üçün həyati əhəmiyyət kəsb edir. Baltik və Qara dəniz hövzələrinin təhlükəsizliyi Avropanın enerji və nəqliyyat dəhlizlərinin təhlükəsizliyi deməkdir. Qərb öz qan damarlarını Rusiyanın təhdidi altında qoya bilməz və çox güman ki, Moskva da baş verənlərin fərqindədir".

**Politoloq savaş üçün heç bir əsasların olmadığını düşünür:** “ABŞ-la Rusiyanın toqquşması üçün heç bir fundamental əsas yoxdur. Münasibətlər toqquşma, qarşıdurma həddinə çatmayıb. Tərəflər arabir bir-birilərinin nəbzini yoxlayırlar. Hər nəbz yoxlanışından sonra isə danışıqlar üçün yeni geosiyasi məqamlar ortaya çıxır və təbii ki, tərəflər maraqlarının uzlaşdırılması üçün müvafiq addımlar atırlar. İndiki şəraitdə qarşıdurma nə ABŞ-ın, nə də Rusiyanın maraqlarına uyğun deyil. Bu baxımdan da prosesin hər hansı bir şəkildə Azərbaycanla əlaqələndirilməsini doğru saymıram. Bizim üçün önəmli olan regionda qüvvələr balansının qorunub saxlanılmasıdır. Belə bir savaş olmayacaq. Bu gün dünyada silahlardan daha effektiv olan təsir vasitələri var. İndi şərtləri iqtisadi güclər diktə edir. Rusiya 2016-cı ilin göstəricilərinə görə iqtisadiyyatı ən çox zərər görən 4 ölkədən biridir. Ötən il Rusiyanın dünya ümumdaxili məhsulun reytinqindəki payı 1-1,2% azalıb. NATO ölkələri ilə Rusiya iqtisadiyyatını isə müqayisə etmək mümkün deyil. Bu və digər səbəblərdən Rusiya-ABŞ münasibətlərinin açıq savaş müstəvisinə keçəcəyi barədə irəli sürülən ehtimallar rus təbliğat maşınının diqqətin ölkədaxili problemlərdən yayındırılaraq xarici düşmən amili üzərində köklənməsinə xidmət edən siyasi fantaziyalardan başqa bir şey deyil”.

❑ **Cavanşir ABBASLI**

# “Kərkükdə vəziyyət dəyişə bilər, yetər ki...”

**“Kərkükün ələ keçirilməsi bütün türk dünyasının məğlubiyyətidir. Türkiyə ağıllı və vaxtında tərpənsəydi, vaxtında Kərkük türklərinə sahib çıxsaydı, bu belə olmazdı. Çox təəssüf”...**

**Politoloq Hikmət Hacızadə** bunu qədim türk məskəni olan Kərkükün kürd separatçıları tərəfindən ələ keçirilməsini şərh edərkən söylədi.

Qeyd edək ki, Kərkük məclisi şəhərdə rəsmi qurumlarda İraq bayrağı ilə yanaşı kürd bayraqlarının da asılmasına qərar vermişdi. Lakin İraq parlamenti həmin qərarı qanunsuz sayaraq məsələyə sərt reaksiya verib. Amma Kərkükü zəbt etmiş kürdlər geri çəkilməyəcəklərini bəyan ediblər. “Kürd bayrağı Kərkükdən enməyəcək”. Bu sözləri Kərkük valisi Nəcməddin Kərim İraq parlamentinin qərarına münasibət bildirərkən deyib. (axar.az) O bildirib ki, məsələ ilə bağlı Bağdaddakı kürd partiyaları ilə birlikdə araşdırma başladılacaq.

**H.Hacızadə vəziyyəti şərh edərkən bildirdi ki, hələ hər şey itirilməyib və bundan sonrakı proseslərə də hazır olmaq lazımdır:** “Bu, hələ filmin sonu deyil, növbəti seriyasıdır. Hələ çox şey dəyişə bilər. Həmçinin Kərkükdə çox şeyin dəyişməsi mümkündür. Məsələn, orada bir federasiya yaranan bilər və ya Kərkük türkmənləri yaşadığı ərazilərdə müstəqillik və ya muxtariyyət ala bilər".

Aprelin ilk günündə İstanbulda Kərkük şəhərində rəsmi qurumların qarşısında İraq bayrağı ilə bərabər Şimali İraq Kürdüstan Bölgə Muxtariyyətinin bayraqlarının asılmasına etiraz əlaməti olaraq mitinq keçirilib. (APA)



**Hikmət Hacızadə:** “Hələ hər şey itirilməyib və bundan sonrakı proseslərə də hazır olmaq lazımdır”



**Zəlimxan Məmmədli:** “Türkiyə olub keçənlərdən nəticə çıxarmaq zorundadır”

Türkməneli Dərnəkləri Federasiyasının təşkil etdiyi və İraqın İstanbul baş konsulluğunun qarşısında keçirilən aksiyada 2 minə qədər insan iştirak edib. Aksiya iştirakçıları “Kərkük Türkdür, Türk qalacaq!”, “Kərkükə uzanan əllər qırılsın!” və digər şüarlar səsləndirib, 5 nəfərdən ibarət heyət aksiyanın qətnaməsini baş konsulluqda rəsmi şəxslərə təqdim ediblər. Aksiyada çıxış edən Türkməneli Dərnəkləri Federasiyasının başqanı Aydın Bayatlı Orta Şərqdə cərəyan edən mürəkkəb proseslər kontekstində bəzi qüvvələrin Türkməneli bölgəsində xaos yaratmaq istədiyini bildirib. İraq prezidentinə, baş nazirinə və Məclis sədrinə müraciətlə bildirilib ki, Kərkükə İraqın kürd bölgəsinin bayrağını asdırmaqdan vaz keçməsi üçün vali Nəcməddin Kərimə lazımi təlimatı versinlər. Həmçinin Türkiyə hökumətinə müraciətlə qardaş Türkməneli bu mübarizəsində yalnız qoymamağa çağırışlar səslənib. Aksiyada Türkməneli ilə bərabər, Türkiyə və Azərbaycan bayraqları da dalğalandırılıb. Lakin görünən budur ki, Kərkükün zəbtinə sivil aksiyalarla, ictimai qurumlar səviyyəsində təpki göstərmək mümkün olmayacaq, burada dövlətin iradəsi öz sözünü deyə bilər.

**“Borçalı” Cəmiyyətinin sədri Zəlimxan Məmmədli də “Yeni Müsavat”a dedi ki, Kərkük uğrunda uzun müddətdir savaş getməkdədir:** “Bu gün durumun ürəkaçan olmamasında Türkiyənin İraq əməliyyatında ABŞ-la əməkdaşlıqdan imtina etməsi mühüm rol oynayıb. İraq əməliyyatında duyğusal müsəlman təəssübkeşliyi rasional siyasi-strateji düşüncəni üstələdi. Təbii ki, ABŞ-la əməkdaşlıqdan imtina qərarının qəbulunda indiki Türkiyə hakimiyyətinin tərkibində avtoritetə çevrilmiş kürd faktoru da mühüm rol oynadı. Nəticə ən azından Türkiyənin xeyrinə olmadı. Şimali İraq kürdlərin əlinə keçdi və PKK üçün baza rolunu oynamaqdadır. Eyni zamanda Türkiyə Kərkük və Mosul üzərində nəzarət imkanını itirmiş oldu”. **Z.Məmmədli qeyd etdi ki, bu, acı da olsa, reallıqdır. Bununla belə, “Borçalı” sədri də H.Hacızadə kimi hər şeyin sonunun olduğunu düşünmür:** “Türkiyə olub keçənlərdən nəticə çıxarmaq zorundadır. 16 aprel referendumunun "əvət" nəticəsi və bu müddətdə ABŞ-la yeni dönəm üçün əməkdaşlığın reallaşma şansının yetərincə olması nikbin sonluq haqda düşünməyə əsas verir. Kərkük təşkilatlanmış toplumdur. Ümummilli hədəf bəllidir. Bu çox önəmlidir. Türkiyənin Kərkükdən əlini üzməsi birbaşa və dolayı formada Türk dünyasının süqutu ola bilər. Düşünürəm ki, bunu Türkiyə strateqləri bizdən də gözəl anlayırlar. Türkiyənin indiki etapda əsas hədəfi yeni dünya çapında daha çox iddia ilə yeni dünyanın ən güclü cinahı ilə münasibətləri aydınlaşdırmaqdır. Bu, ABŞ-dır. Proseslər də deyir ki, bu əməkdaşlıq alternativsiz olmaqla, orta doğunun gələcəyinin daha ədalətli qurulmasını təmin edəcək amildir".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 68 (6682) 4 aprel 2017

# İntihar xəbərlərinin ictimailəşdirilməsi lazımdırmı...

## Həmid Herisçi: “Aidiyyəti orqanlar intiharlar dalğasını və səbəbləri ciddi araşdırmalıdır”

**Azərbaycanda son vaxtlarda intihar hadisələri sanki bir epidemiya kimi yayılmağa başlayıb. Bir çox tanınmış ictimaiyyət nümayəndələri bu cür hadisələrin artmasında cəmiyyətin və medianın xüsusi rol oynadığını qeyd edirlər. Bildirilir ki, intihar hadisələrinin mediada çox hallanması sanki intihar romantizmini yaradır və intihara meylli insanları bu addımı atmağa təşviq edir.**

Bu yanaşmadan çıxış edərək, mediada intihar xəbərlərinin yayımlanmasının yolverilməz olduğu qeyd olunur. Məlumata görə, bəzi ölkələrdə intihar xəbərlərinin yayılması qadağan edilib. Bu ölkələrin siyahısında qardaş Türkiyənin də adı çəkilir. Bununla bağlı bir fakt qeyd olunur ki, Yaponiyada intihar hadisələrinin qarşısının alınması üçün test keçirilib, metroların birində “Çox xahiş edirik, intihar etməyin” yazısı paylaşılıb. Aparılan araşdırmalar zamanı məlum olub ki, bundan sonra intiharların sayı daha da artmağa başlayıb.

Maraqlıdır ki, əksər intiharlar elə metroda baş verib. Və yaxud araşdırılıb ki, vaxtilə Səddam Hüseynin asılması səhnəsi televizorda göstərildikdən sonra özünü asma cəhdləri çoxalmışdı. Ekspertlər qeyd edib ki, informasiyalar bu cür fəsadların daha da artmasına gətirir.

Beləliklə, ortalığa yenə bu sual çıxır, intihar hadisələrinin ictimailəşdirilməsi lazımdırmı?



**“Xalq cəbhəsi” qəzetinin baş redaktoru, politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, intihar xəbərlərinin gizlədilməsi də doğru deyil:** “Əslində intihar hadisəsi baş veribsə, bunun səbəblərini araşdırmaq lazımdır. Şübhəsiz ki, intihar hansısa səbəbdən qaynaqlanır. Bunun ətrafında sosial səbəblər də, ailə-məişət münasibətləri də formalaşır. Biz jurnalistlər xəbərçiyik, yəni olan hadisəni ictimaiyyətə çatdırmalıyıq. Amma təbii ki, bunu romantikləşdirmək, təbliğ etmək, intiharı çıxış yolu kimi göstərmək, qələbə kimi vermək kökündən yanlışdır. Mən son, o cümlədən gənc yazıçıların intiharı ilə bağlı bəzi köşə yazılarında bu istiqamətdə aparılan romantik təbliğatı müşahidə etdim və təəssüfləndim. İstənilən şəxsin özünəqəsd etməsi və yaxud hər hansı səbəbdən ölməsi ağrıdıcıdır, xüsusən də gənc insanın özünə qıyması insana daha çox təsir edir. Amma bu məsələyə romantika üzərindən, ədəbiyyat mövzusu üzərindən yanaşmaq lazım deyil. Fikrimcə, məhz bu səbəblər aradan qalxmalıdır. Xəbər kimi intihar hadisəsinin yayılması deyil, daha çox həmin hadisəni yaradan səbəbi aradan qaldırmağa çalışılmalıdır”.

**Tanınmış jurnalist və yazar Həmid Herisçi isə məsələyə bu cür münasibət bildirdi:** “Ümumiyyətlə, son intiharlar dalğasını bizim alimlərimiz, hüquq müdafiə sisteminin işçiləri dərindən öyrənməlidirlər. Yəni bunu şairlərin, sosial şəbəkədə yayılan statusların ixtiyarına vermək olmaz. Məsələnin estetik, ədəbi tərəfləri qalsın bir tərəfə, bu demaqogiya mövzusu deyil. Aidiyyəti orqanlar son zamanlarda respublikada artmış intiharlar dalğasını araşdırmalıdır. Fikrimcə, bəzi intiharlar heç də özünəqəsd deyil, ”iz aldadan"dır. Bəzən məxfi işlər aparanda cinayət işi intihar kimi təqdim olunur. Məsələn, mənim üçün şübhəli olan intiharlardan biri gənc yazar Mövlud Mövludun intiharı oldu. Şəxsən mən inanmıram ki, o, özünə qəsd etsin. Bir məsələni də qeyd edim ki, ədəbiyyatda bu cür dekadans, ölüm aşiqliyi, sızlamaq, bədbinlik var. Məsələn, Azərbaycan yazarları ölümə aşiqdirlər və təəssüf ki, bu dekadans, ölümə aşiqliq ədəbiyyatımıza hakimdir. Bu, gənc yazarların arasında əksəriyyət təşkil edir".

**Qeyd edək ki, bir çox psixoloqlar da medianın intihar xəbərlərinə həssas olmasını vacib sayır. Psixoloq Azad İsazadə vaxtilə bu mövzu ilə bağlı müsavat.com-a açıqlamasında bildirmişdi:** “Bu cür xəbərlərin mediada yayılması nə düzdür, nə səhv. Onu da peşəkarlar etməli, bu məsələdə ümumi fikrə gəlməlidir. O cümlədən media üçün təlimatlar hazırlanmalıdır. Yəni nəyi demək olar, ya olmaz, nəyi göstərmək olar, nəyi isə olmaz və sair. Ancaq ümumiyyətlə, heç nə göstərməmək, heç nə deməmək - o da doğru deyil. Çünki intihar barədə məlumatlar onsuz da camaat arasında yayılır, indiki internet əsrində bu, çox asan baş verir. Deməli, biz bu prosesi, sadəcə, nəzarət altına götürməliyik”.

❑ Xalidə GƏRAY



# Mövcud hava şəraiti əkin-biçinə necə təsir edəcək...

## Babək Tatlıyev: “Təbiət oyandıqdan sonra qarın və ya dolunun yağması ancaq zərər verir”

**Azərbaycanda son günlərdə təbiət dəyişikliyi yaşanmaqdadır. Belə ki, bir çox bölgələrdə aprel ayı üçün xarakterik olmayan hava şəraiti müşahidə olunur, bəzi yerlərdə hətta qar yağıb. Məsələn, aprelin 2-də Qusarın Ləzə kəndinə güclü qar yağıb. Yağan qarın hündürlüyü isə 4 sm-ə çatıb, temperatur mənfi 5 dərəcəyə enib. Lerik rayonunun mərkəzinə yağan qar 5-6 sm, yüksək dağlıq ərazilərə isə 10 sm olub. Şəki və Oğuz rayonlarında da bir çox kəndlər “ağ örpəyə” bürünüb. Qeyd edək ki, bəziləri aprel ayında müşahidə olunan qarlı hava şəraitinin normal olduğunu bildirsələr də, əksəriyyət bu cür hava şəraitini heç də normal qəbul etməyərək, şaxtalı havanın kənd təsərrüfatı məhsuldarlığını aşağı salacağını vurğulayır.**

Ekspertlər isə aprel ayında ölkənin dağlıq ərazilərinə qar və ya sulu qar yağmasının xarakterik olduğunu, əvvəlki aprel aylarında da dağlıq ərazilərə qar yağdığını açıqlayırlar.

Bəs bu cür hava şəraiti kənd təsərrüfatı məhsullarına necə təsir göstərə bilər?

Mövzu ilə bağlı **kənd təsərrüfatı eksperti Babək Tatlıyev** “Yeni Müsavat”a danışıb. Onun sözlərinə görə, adətən qar yağanda el arasında deyirlər ki, “torpaq dincəlir”: “Bu, əsasən qış aylarında, yəni yanvar-fevralda baş verirsə, onda qarın xeyri var. Lakin yazda, xüsusən də ağacların çiçək açdığı zamanda qar yağarsa, bu, ziyan vurur. Çünki yağan qar ya çiçəyi dondurub məhv edir, ya da ki tökür. Bu da gələcəkdə meyvə qıtlığına səbəb olur. Buna görə də artıq təbiət oyandıqdan sonra qarın və ya dolunun yağması ancaq zərər verir.

Amma düşünmürəm ki, bugünlərdə dağ rayonlarda yağan qar ziyan vursun. Çünki çox güman ki, həmin ərazilərdə ağaclar hələ çiçək açmayıb. Yox, əgər həmin ərazilərdə, xüsusən də aran rayonlarında ağaclar çiçək açmağa başlayıbsa və qar yağıbsa, təbii ki, birmənalı şəkildə zərər verəcək".

❑ Xalidə GƏRAY

# “Dünya gözəldir, onun yaxşı, gözəl cəhətlərini tutub yaşamaq lazımdır”

## Musa Yaqub: “Müharibənin bitdiyi vaxtlarda çörək tapılmırdı, amma nəhəng ümidimiz var idi”

**Bugünlərdə sosial şəbəkələrdə xalqın şairi Musa Yaqubun xalqa müraciəti yayıldı. Müraciətdə şair hazırda doğma Buynuz kəndində olduğunu bildirib, öz şeirini oxuyub, insanları yaşamağa, təbiəti sevməyə çağırıb. Qeyd edək ki, şairin bu müraciəti mətbuatda son vaxtlar ölkədə artan intiharlara qarşı bir çağırış kimi dəyərləndirilib. Şair Musa Yaqub bununla bağlı “Yeni Müsavat”a açıqlama verib, məsələyə öz münasibətini bildirib:**

“Bu intiharları çox ağır qarşılayıram, insan özünə qəsd etməz. İstəmirəm ki, insanlar intihar etsin. Özünü öldürmək çox ağır şeydir, bilmək olmur onlar hansı bəlalarla qarşılaşırlar ki, intihar edirlər. Lakin o müraciəti edəndə intiharları fikirləşməmişdim. Mən yəni onu deyirdim ki, dünya gözəldir, onun yaxşı, gözəl cəhətlərini tutub yaşamaq lazımdır. Mümkün deyil ki, hər cür işdən kədərlənəsən, qarnın ağrısın. Bəzisi depressiyalara düşür, bəzisinin məhəbbəti daşa toxunur, bəzisində başqa səbəb olur.

Bu mənada demişəm ki, gərək yaşayasan. Bu dəfə kəndə gedəndə mənə bir dəstə bənövşə verdilər. İyləmdim ki, bunun iyi yoxdur.. Xeyli kədərləndim. Dedim ki, ilahi, heyf o əvvəlki bənövşələrdən... Sanki torpağın da halı qalmayıb,



bənövşədə də buna görə əvvəlki qoxu yoxdur. Mən müraciətimdə sosial şəbəkə izləyicilərinə təşəkkür etmişəm ki, oradan məni izləyir, şeirlərimi oxuyurlar... Müharibənin *(İkinci Dünya müharibəsini nəzərdə tutur)* bitdiyi vaxtlarda çörək tapılmırdı, göy-göyərti ilə dolanırdıq. Amma nəhəng ümidimiz var idi. Bilmirdim, onu indi Allah-tala bizim üçün yaratmışdı, ya biz onun dalınca baxırdıq, amma ümidimiz bizi gətirib gözəl günlərə çıxartdı. Çətin vaxtlar olur, amma insan gərək həmişə ümiddən asılı qalsın.

Bir daha qeyd edirəm ki, mən müraciətimdə intiharları nəzərdə tutmamışdım, amma təki sözlərim insanlara təsir etsin. Onlara bir zərrə ümid versə, mək özü böyük işdir".

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 68 (6682) 4 aprel 2017

# Döyülən qadın ölkə rəhbərliyindən kömək istəyir

## Həqiqət Quliyeva: "Xalqı dövlətimizdən narazı salan hakimlər haqda ölçü götürülsün"

**Şirvan şəhər sakini Həqiqət Quliyeva birinci ledi, 1-ci vitse-prezident Mehriban Əliyevadan kömək istəyir. O, birinci xanıma yazdığı, surətini redaksiyamıza yolladığı məktubunda qeyd edir ki, Yasamal rayonu, Alatava massivində yaxın qohumları tərəfindən dəfələrlə - 18.01.2016 və 11.03.2016 il tarixdə amansızcasına döyülüb.**

"Bu barədə nazir Ramil Usubova müraciət edəndən sonra məni amansızcasına, qəddarlıqla döyüb sağlamlığıma qəsdən xəsarət yetirənlərdən Ələmdar Nüsrət oğlu Məmmədov barəsində Cinayət Məcəlləsinin 127.2.3 və 221.3 maddəsi ilə cinayət işi başladı. Barəsindən həbs-qətimkan tədbiri seçildi. 3 aylıq həbs-qətimkan tədbirini seçən Yasamal rayonun hakimi Zəfər Quliyev 21 mart 2017-ci il tarixdə qeyri-iş günü olduğu halda həbs-qətimkan tədbirini ev dustaqlığı ilə əvəz edib. Hakim Ələmdar Məmmədovu azadlığa buraxdı. Hakimdən soruşan yoxdur ki, nə baş verdi ki, cinayət işində hansı dəyişiklik oldu ki, Ələmdar Məmmədovu ev dustaqlığına buraxdın? Bakı Apelyasiya Məhkəməsinin hakimi Vüqar Məmmədov prokurorluğun şikayətinə baxmayıb, hakim Zəfər Quliyevin qərarını qüvvədə saxladı. Mən hər 2 hakimə müraciət edirəm: sizin həyat yoldaşınızı amansızlıqla döyən şəxsi sizin kimi hakim azadlığa buraxsaydı, hansı hissi yaşayardınız? Bu haqsızlığa dözə bilərdinizmi?

Hörmətli Mehriban xanım. Məni ölümümə döyənlərdən Rəşad Hüseyn oğlu Məmmədov və Ramil Ələmdar oğlu Məmmədov cinayət məsuliyyətinə cəlb olunmayıblar. Rəşad Hüseyn oğlu Məmmədov zabitdir. 1 il 2 aydır ki, istintaq gedir və qeyd etdiyim şəxslər izahat verməyə də gəlmirlər. Hansı qüvvə bunların arxasında dayanırsa bilmirəm. Nə qədər şikayət etsəm də əhəmiyyət verən yoxdur. Ona görə azərbaycanlı qadın kimi, ana kimi Sizdən xahiş edirəm, insan hüquq və azadlıqlarını ayaq altına atıb xalqı dövlətimizdən narazı salan hakimlər haqda ölçü götürülsün. Ədliyyə naziri Fikrət Məmmədov hakimdən izahat tələb etsin ki, hansı əsasla məni Bakının ortasında döyən və ağır cinayət törədən Ələmdar Məmmədovu ev dustaqlığına buraxıblar. Xahiş edirəm şikayətimi şəxsi nəzarətinizə götürəsiniz".



❑ **E.HÜSEYNOV**



## 15 min manatlıq dələduzluq edən qadına 7 il həbs cəzası verildi

**15 minlik dələduzluq etməkdə təqsirləndirilən qadın məhkəmə zalında həbs edilib. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Rəsmiyyə Musayevanın cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Hakim Novruz Kərimovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub və R.Musayeva məhkəmə zalında həbs edilib.

Hökmə əsasən 7 il müddətinə azadlıqdan məhrum edilib.

Bildirək ki, R.Musayeva Bakı şəhər sakini Səməd Hüseynova qarşı dələduzluq edib. O, zərərçəkmişin etibarından sui-istifadə edərək, S.Hüseynova Xətai rayonunda 2.5 sot torpaq satacağını vəd verib. Ümumilikdə 15 min manat pul alıb.

S.Hüseynovun şikayətindən sonra R.Musayeva saxlanılıb. İstintaq dövründə onun barəsində ev dustaqlığı qətimkan tədbiri seçilib.

O, Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda törədildikdə) maddəsi ilə ittiham olunub.

Onu da əlavə edək ki, R.Musayeva özünü təqsirli bildiyini və törətdiyi əməldən peşman olduğunu söyləyib.

❑ **İ.MURADOV**

## Bakı sakini yanaraq ölüb

**Bakı sakini yanaraq ölüb. APA-nın məlumatına görə, hadisə Xəzər rayonu, Mərdəkan bağlarında qeydə alınıb. Mərdəkan sakini, 1958-ci il təvəllüdlü Telman Əsədulla oğlu Pənahov qızının bağ evində sərxoş vəziyyətdə sobanı qucaqlayaraq yatıb. Nəticədə o, yanaraq ölüb.**

Faktla bağlı araşdırma aparılır.

## 180 min manatlıq dələduzluq

**Bakıda qadına qarşı 180 min manatlıq dələduzluq edilib. "Report"un xəbərinə görə, 1971-ci il təvəllüdlü S.Muradova hüquq-mühafizə orqanlarına müraciət edərək dələduzluqla üzləşdiyini bildirib.**

Qadın bildirib ki, 2013-cü ilin sentyabr ayından 2014-cü ilin mart ayınadək 1987-ci il təvəllüdlü N.Nəsirov onu aldadaraq 180 min manat pulunu alıb və indiyədək qaytarmayıb.

Faktla bağlı araşdırma aparılır.

## Ərindən şübhələnən qadın onu taksi sürücüsünə izlətmək istədi...

**Bakıda taksidə qəribə hadisə baş verib. Avtosfer.az xəbər verir ki, bu haqda azxeber.com-a taksi sürücüsü özü məlumat verib. Onun dediyinə görə, qadın müştərilərdən biri sürücüyə ərini izləmək təklifi edib, əvəzində isə nə qədər pul istəsə verəcəyini bildirib.**

Sürücü bu təkliflə razılaşmayıb, bunun etik olmadığını deyib və qadını bu işdən yayındırmağa çalışıb. Sürücünün bu reaksiyası qadını daha da hiddətləndirib və o, sürücüdən taksi şirkətinə şikayət edib. Belə ki, qadın sürücünün ona əxlaqsız təklif etdiyini deyib. Şirkət məsələni araşdırıb və məlum olub ki, qadın yalan deyirmiş. Əvəzində taksi şirkəti bu addıma görə sürücünü mükafatlandırıb və onun balansına pul yükləyib. Qeyd edək ki, sürücünün dediyinə görə, izlənilməsi tələb olunan kişi məmur imiş.



## Külli miqdarda valyutanın ölkədən çıxarılmasının qarşısı alınıb

**Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları külli miqdarda xarici valyutanın ölkənin gömrük sərhədindən bəyan etməmək lə keçirilməsinə cəhdin qarşısını alıblar.**

Dövlət Gömrük Komitəsinin (DGK) mətbuat xidmətindən "APA-Economics"ə verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında Bakı-Tehran aviareysi ilə getmək istəyən İran vətəndaşı Amirahmadi Mohammadrezanın əl çantası rentgen aparatından keçirilərkən monitorda kağız pulların təsviri görünüb.

Vətəndaş saxlanılıb və onun əl çantası yoxlanılıb. Nəticədə çantada əvvəlcədən gömrük nəzarətinə təqdim edilməyən, şifahi, elektron və ya kağız üzərində yazılı formada bəyan olunmayan 172 ədəd - hər biri 100 ABŞ dolları nominalında pul əsginazları olmaqla, cəmi 17 200 ABŞ dolları aşkar edilib.

Faktla bağlı araşdırma aparılır.

**ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.

* Diaqnozu bilinməyən ağır hallar;
* Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
* Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
* Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
* Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
* Sidikdə və spermada qan;
* Spermanın azalması, itməsi;
* Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
* Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
* Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
* Tala-tala və hərtərəfli saçların tökülməsi;
* Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
* Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
* Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
* Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

## Elan

**Mustafayev Rəşid Tapdıq oğlunun adına olan JN 224 saylı torpaq şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

Yeni Müsavat
N 68 (6682) 4 aprel 2017

# Dollar ucuzlaşdı, amma qiymətlər olduğu kimi qaldı...

**Ekspert:** "Güman ki, may ayının əvvəllərindən - yeni məhsullar çıxdıqdan sonra qiymətlərdə bir qədər ucuzlaşma baş verəcək"

**Manatın dollara nisbətdə məzənnəsinin 1.72-1.75 ətrafında sabitləşməsinin iki ayı tamam olur. Bu müddət ərzində bir çox məhsulların qiymətinin ucuzlaşması gözlənilsə də bu baş vermədi. Xüsusən ərzaq bazarında qiymətlərdə heç bir ucuzlaşma müşahidə olunmadı. Bunun əksinə olaraq , digər bir çox sahələrdə, xüsusən də tikinti materialları bazarında qiymətlərdə ciddi ucuzlaşma müşahidə olunur. İş adamları bu sahədə yaranan durğunluğu azaltmaq üçün dolların yeni məzənnəsi ilə aldıqları malları daha ucuz satmağa çalışırlar.**

Bəs görəsən, ərzaq bazarında ucuzlaşmanın olmamasının, əksinə, bəzi məhsulların bahalaşmaqda davam etməsinin səbəbi nədir? Burada monopoliyanın rolu varmı? Ərzaq bazarının digər sektorlardan fərqi nədədir?

**Bu sualları cavablandıran Natiq Cəfərli "Yeni Müsavat"a danışarkən bildirdi ki, bu, əsasən tələb və təkliflə bağlıdır:** "Tikinti sektorunda onsuz da durğunluq müşahidə olunur. Həm təmir sahəsində, həm də tikinti sahəsində əvvəlki illərə nisbətən aktivlik azalıb. O sahədə çalışan iş adamları dövriyyəni saxlamaq üçün bəzən məcburən qiymət artımına getmirlər. Çünki yüksək qiymətlər onsuz da az olan müştəriləri daha da qaçırdır. Ərzaq məhsullarında isə vəziyyət fərqlidir. Onlar gündəlik tələbat mallarıdır. İnsanlar üçün vacib hesab olunan bir sahədir. Tələb çox olduğuna görə ciddi bir ucuzlaşma olmur. Burada ölkəyə ərzaq gətirənlərin və istehsalçıların gələcəkdə baş verəcək devalvasiyaya hesablanmış risk anlayışı da özünü göstərir. Əgər gələcəkdə dollar bahalaşarsa, onlar bu faktoru indidən qiymətlərdə nəzərə alırlar və ucuzlaşmaya getmirlər".



**İqtisadçının fikrincə, manatın məzənnəsi bu kurs ətrafında 4-5 ay sabit qalsa, bəlkə o zaman ucuzlaşma baş verdi:** "Həmçinin burada mövsümi amillər də rol oynayır. Mart və aprel aylarında bəzi məhsullar tükəndiyindən bu da qiymətlərə təsir edir. Çox güman ki, may ayının əvvəllərindən - yeni məhsullar çıxdıqdan sonra qiymətlərdə də bir qədər ucuzlaşma baş verəcək. O zaman da qiymətlərə, indiki məzənnədə sabit qalsa qiymətlərdə az da olsa azalma müşahidə edə bilərik. Ancaq yaxın zamanlarda belə bir ucuzlaşmanın olması ehtimalı çox azdır. Birincisi, ərzaq məhsulları gündəlik tələbat mallarına daxil olduğu üçün insanlar məcburən bunu alırlar. Bu da qiymətlərin aşağı düşməsinə mane olan amillərdən biridir. İkinci amil isə risk faktorudur".

**Natiq Cəfərli vurğuladı ki, bahalaşmaya təsir edən digər bir məsələ də dolların alış və satış qiymətidir:** "4 faizlik marja ləğv olunduğundan banklar dolları rəsmi məzənnədən ucuz alıb baha satırlar. Rəsmi məzənnə 1.72 AZN olsa da, dolların ən ucuz satışı 1.75 AZN-dir. Bir neçə qəpiklik fərq böyük məbləğlərdə ciddi fərq yaradır".

**İqtisadçı həmçinin etiraf etdi ki, qiymətlərin ucuzlaşmamasında monopoliyanın da rolu var:** "Bu, Azərbaycan iqtisadiyyatının ənənəvi bəlasıdır. Dolların məzənnəsinin 0.78 AZN olduğu dövrdə belə Azərbaycanda ərzaq qiymətləri qonşu ölkələrlə müqayisədə çox baha idi. Səbəb də inhisarçılığın gətirdiyi təsirlər idi. Ölkədə rəqabətli mühit olsaydı, işləmək üçün normal şərait olsaydı, bazarda oyunçuların sayı yetərincə olsaydı, təbii ki, bunun qiymətlərə müsbət təsiri olardı. Monopoliyanın bu günə qədər qalmasının, hökumətin bunda maraqlı olmasının bir göstəricisi də odur ki, artıq 20 ildir ki, Azərbaycan Ümumdünya Ticarət Təşkilatı ilə danışıq aparır, ancaq üzv olmur. ÜTT-yə üzv olmağın gecikdirilməsinin əsas səbəbi korporativ maraqlardır. ÜTT-yə üzvlük ən azından idxal mallarında beynəlxalq oyun qaydalarının tətbiq olunmasına gətirib çıxara bilərdi ki, bu da inhisarçılığa qarşı mübarizədə mühüm rol oynayardı. İkinci göstərici odur ki, 10 ilə yaxıdır parlamentdə Rəqabət Məcəlləsi birinci oxunuşdan keçdikdən sonra rəfə qaldırılır. Bu günə qədər də Rəqabət Məcəlləsi qəbul olunmayıb. Deməli, burada kimlərinsə marağı var və o maraqlar bu qanunun qəbuluna mane olur. Rəqabət Məcəlləsi qəbul olunsaydı, ən azı ölkə daxilində bəlli oyun qaydaları və inhisarçılığa qarşı mübarizə üçün hüquqi mexanizm yaranmış olardı. Bunun qəbul olunmamasının səbəbi də məhz korporativ maraqlardır".

❑ **Nərgiz LİFTİYEVA**

# ARDNF ilk üç ayda hərraclarda 784,4 mln. dollar satıb

**Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) mart ayı ərzində valyuta hərraclarında satdığı vəsaitin həcmini açıqlayıb.**

ARDNF-in İctimaiyyətlə əlaqələr departamentindən "APA-Economics"ə verilən məlumata görə, ötən ay fond tərəfindən valyuta hərraclarında 250 mln. ABŞ dolları məbləğində vəsait satılıb.

Xatırladaq ki, ARDNF yanvar-fevral ayları ərzində AMB tərəfindən keçirilən valyuta hərraclarında 543,4 mln. dollar məbləğində vəsait satıb. Beləliklə, cari ilin 3 ayı ərzində ARDNF tərəfindən hərraclarda satılan valyutanın həcmi 784,4 mln. dollar təşkil edib.

Qeyd edək ki, 2016-cı ildə keçirilən valyuta hərraclarında ARDNF 4,9 mlrd. dollar satıb ki, bu da 2015-ci illə müqayisədə 37,5% azdır.

# Ali və orta ixtisas təhsili müəssisələrinə 56 mindən çox abituriyent sənəd verib

**Azərbaycanda ali və orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu davam edir. Dövlət İmtahan Mərkəzindən APA-ya verilən xəbərə görə, ali təhsil müəssisələrinə və tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ərizələrin qəbulu aprelin 10-dək davam edəcək. Saat 14:15-ə olan məlumata əsasən, I-V ixtisas qrupları və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən 56200 nəfər elektron ərizəsini təsdiq edib. Aprelin 10-dək elektron ərizəsinin təsdiq edilməsini təmin etməyən şəxslər imtahana buraxılmırlar.**



Ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ərizələrin qəbulu isə aprelin 4-dək davam edəcək. Saat 14:15-ə olan məlumata əsasən, 14000 nəfər elektron ərizəsini təsdiq edib.

Qeyd olunan tarixə qədər elektron ərizəsinin təsdiq edilməsini təmin etməyən şəxslər imtahana buraxılmırlar.



# SOCAR-ın satdığı xam neft martda kəskin bahalaşıb

**SOCAR mart ayında dünya bazarında xam neftin qiymətlərini açıqlayıb. Dövlət şirkətindən "APA-Economics"ə verilən məlumata görə, ötən ay dünya bazarında Brent tipli xam neftin 1 bareli 51,57 dollara, Urals nefti 50,20 dollara, BTC FOB Ceyhan tipli xam neft isə 52,86 dollara satılıb.**

Qeyd edək ki, fevralda dünya bazarında Brent tipli xam neftin 1 bareli 55,11 dollara, Urals nefti 54,01 dollara, BTC FOB Ceyhan tipli xam neft isə 56,63 dollara satılıb. Beləliklə, Brent tipli neftin qiyməti 6,4%, Urals neftinin qiyməti 7,05%, BTC FOB Ceyhan tipli xam neftin qiyməti isə 6,7% azalıb.

Ötən ilin martında dünya bazarında Brent tipli xam neftin 1 bareli 38,49 dollara, Urals nefti 37,18 dollara, BTC FOB Ceyhan tipli xam neft isə 39,80 dollara satılıb. Beləliklə, il ərzində Brent tipli neftin qiyməti 34%, Urals neftinin qiyməti 35%, BTC FOB Ceyhan tipli xam neftin qiyməti isə 32,8% artıb.



# İslam Oyunlarında Bakıda hərəkət zolaqları tətbiq ediləcək küçələrin siyahısı açıqlandı

**IV İslam Oyunlarında Bakıda hərəkət zolaqları tətbiq ediləcək küçə və prospektlərin siyahısı açıqlanıb.**

Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyevin APA-ya verdiyi məlumata görə, Ziya Bünyadov prospekti, Bakı dairəvi yolu, Salyan şossesi, Bibiheybət yolu 1, Bibiheyət yolu 2, Neftçilər prospekti, Qara Qarayev prospekti (bütün yol), Atatürk prospekti, Fətəli xan Xoyski küçəsi, Vaqif prospekti, Hənifə Ələsgərov küçəsi, Tbilisi prospekti, Abdulvahab Salamzadə küçəsi və Böyükşor şosesində ayrılacaq hərəkət zolaqlarında nəqliyyatla İslam Oyunlarında iştirak edəcək idmançılar və qonaqlar daşınacaq: "Yollarda çəkilmiş xüsusi zolaqlara IV İslam Həmrəyliyi Oyunlarına cəlb olunmuş nəqliyyat vasitələri istisna olmaqla, digər nəqliyyat vasitələrinin girişinə qadağa qoyulacaq, yalnız xüsusi buraxılışı olan nəqliyyat vasitələri, xüsusi loqolarla işarələnmiş nəqliyyat vasitələri bu zolaqlarla hərəkətə edə biləcək".

K.Əliyev bildirib ki, əgər digər nəqliyyat vasitələrinin sürücüləri bu zolaqlara daxil olacaqlarsa, onlar inzibati məsuliyyətə cəlb olunacaq: "Bu zolaqlara 24 saat nəzarət olunacaq. Sürücülər mayın 1-dən 25-nə kimi zolaqlara çıxmasınlar".

YENİ MÜSAVAT

Son səhifə

N 68 (6682) 4 aprel 2017



## Nəvələri üçün marixuanalı dərman istehsal etdi

**Hollivud aktrisası Vupi Qoldberq marixuana tərkibli, qadınlar üçün nəzərdə tutulmuş dərman hazırlayıb. Lenta.ru saytının xəbərinə görə, 60 yaşlı kinoulduz bu dərmanı rəsmi icazə ilə, kannabis üzrə ekspert olan Maya Elizabetlə birgə çıxarıb. Onların ortaq məhsullarının adı "Whoopi & Maya adlanıb. Qoldberq bu dərmanı qadınların menustrasiya ağrılarını aradan qaldırmaq üçün hazırlayıb. Onun sözlərinə görə, bu dərmanı hazırlamasına yeniyetmə nəvələrinin menustrasiya ağrılarından kəskin şəkildə narazılıq etməsi səbəb olub.**

Vupi qeyd edib ki, onun hazırladığı məhsul heç də "kayf tutmaq" istəyənlər üçün deyil. Çünki tibbi marixuana o effekti vermir. Preparatlar ancaq ağrını götürəcək və rahatlamağa imkan verəcək. Kolleksiyaya qarının aşağı hissəsinə sürtüləcək məlhəm, vanna üçün eliksir, çaya əlavə olunacaq damcılar daxildir. Aktrisa qeyd edib ki, qadınlar bu vasitələrdən istifadə edib, rahat günlük həyatlarına davam edə bilərlər. Hətta o preparatları çantalarında belə aparmaları mümkündür. Aktirsanın fikrinə görə, Whoopi & Maya adlı preparatdan yer kürəsinin yarısı istifadə edə bilər.

# Kişilər niyə diş həkimindən qorxur?



**Türkiyənin Ondokuz Mayıs Universiteti Stomotologiya Fakültəsində aparılan araşdırmaya görə, kişilər diş müalicəsindən qadınlardan daha çox qorxur. Araşdırmaya rəhbərlik edən həkim Emre Bodrumlu bildirib ki, nəticə əldə etmək üçün yaşı 16-dan böyük olan 1335 nəfərlə görüşüb: "Araşdırma nəticəsində xəstələrin 59 faizinin diş həkimi və diş müalicəsindən qorxduğunu müəyyənləşdirdik. Kişilərin diş həkimi və diş müalicəsindəki qorxularının qadınlardan 12 faiz artıq olduğunu ortaya çıxardıq. Qorxu zamanı kişilərin sürətlə nəfəs alıb-verdiyi və ürəyinin sürətlə döyündüyü müşahidə edildi. Qadınlarda isə əzələlər gərilir və ürəyin ritmi sürətlənir".**

Həkim onu da deyib ki, daha çox kişilər diş müalicəsini gecikdirirlər və bu gecikmə də müalicəyə mənfi təsir göstərir: "Ən şiddətli qorxu anı xəstənin iynəni görməsi və iynə vurulması zamanı baş verir".

# Ən ağlağan uşaqlar bu ölkədədir



**Britaniyalı psixoloqlar müəyyən ediblər ki, Böyük Britaniya, İtaliya, Niderland və Kanadada doğulan uşaqlar dünyanın ən ağlağan uşaqlarıdır. Onlar Daminarka, Almaniya və Yaponiyadakı körpələrdən qat-qat çox ağlayır. Alimlər bu nəticəyə Almaniya, Danimarka, Yaponiya, Kanada, İtaliya, Niderland və Böyük Britaniyada doğulan 8700 körpə üzərində müşahidə apardıqdan sonra gəliblər. Araşdırmalara görə, körpələr həyatlarının ilk iki həftəsində gün boyu orta hesabla 2 saat ağlayırlar. Daha sonra ağlamanın müddəti müntəzəm olaraq artır və altıncı həftədə 2 saat 15 dəqiqəyə çatır. Bu müddətdən sonra isə körpələr daha az ağlamağa başlayırlar. 12-ci həftədə isə onların ağlaması orta hesabla bir sutkada 1 saat 10 dəqiqəni əhatə edir.**

Araşdırmada orta statistik göstəricilərdən fərqli olan körpələrin də olduğu müəyyənləşib. Belə ki, bəzi körpələr gün ərzində 30 dəqiqədən artıq ağlamırlar. Bəzilərinə isə gündə ağlamaq üçün 5 saat da bəs etmir. Fərq körpənin hansı ölkədə dünyaya gəlməsi ilə əlaqədardır. Amma araşdırma nəticəsində körpənin ağlama müddəti ilə onun yaşadığı ölkə arasında nə kimi əlaqə olduğu üzə çıxmayıb. Bunun üçün xüsusi araşdırmaya ehtiyac duyulur.

## Qoroskop




**QOÇ** - Astroloji göstəricilər qətiyyən darıxmayacağınızdan xəbər verir. Çünki sevdiyiniz insanların əksəriyyəti ətrafınızda olacaq. Keçmişdə olan xoşagəlməzlikləri tez-tez xatırlamayın.

**BUĞA** - Ulduzların düzülüşü yalnız ailə üzvlərinizlə rahatlıq tapacağınızı bəyan edir. Digər ünvanlarda, ələlxüsus da həmkarlarınızla davranışlarda hər şey tərsinə cərəyan edə bilər.

**ƏKİZLƏR** - Perspektivlərinizi reallaşdırmaq üçün müəyyən xərcə düşməkdən qorxmayın. Çünki bu barədə düşündükləriniz gerçəkləşsə, özünüzü xoşbəxt sanacaqsınız. Ümidli olun.

**XƏRÇƏNG** - Qarşılaşdığınız hər bir hadisəyə soyuq başla yanaşın. Çünki hər hansı emosional reaksiyanız bütün planları poza bilər. Bu gün enerjiniz bol olduğundan heç nədən çəkinməyin.

**ŞİR** - Yaxşı olar ki, son bir həftədə yığdığınız yorğunluğu məhz bu təqvimdə əridəsiniz. Yoxsa səhhətinizdə ciddi fəsadlar baş qaldıra bilər. İş istiqamətində dönüş yaratmağınız vacibdir.

**QIZ** - Bu gün qeyri-adi hansısa hadisə baş verməyəcək. Yaxşı olar ki, dincələsiniz. İnsanlarla davranışlarınızda və fəaliyyətinizdə yeni nüanslar əmələ gələcək. Qonaqlıq da mümkündür.

**TƏRƏZİ** - Qarşınıza təzadlı bir gün çıxsa da, hadisələrin inkişafı boyu öz aktivliyinizi artırmalısınız. Reallığı qiymətləndirməyə çalışın. Saat 15-dən sonra qazanmaq ehtimalınız böyükdür.

**ƏQRƏB** - Nəhayət ki, sizin dövranınız da gəlib çatdı. Bütün Göy qübbəsi müdafiənizə qalxdığından qarşınıza qoyduğunuz hər bir ədalətli iş xoş sonluqla qurtaracaq. Səfərə çıxmağa dəyər.

**OXATAN** - Ulduzlar məsləhət görür ki, bu gün aldığınız bütün dəvətləri təxirə salıb dincəlməklə məşğul olasınız. Əks təqdirdə ailə üzvlərinizlə aranızda xoşagəlməzliklər baş qaldıra bilər.

**OĞLAQ** - Ümumi yorğunluğunuzu nəzərə alıb maraqlı guşələrdə istirahətə can atın. Məhz bu addımınız ümumi narahatlığınıza son qoya bilər. Nahardan sonra yeni xəbərlər eşidəcəksiniz.

**SUTÖKƏN** - Hər mənada düşərli ərəfədir. Vaxtilə buraxdığınız səhvlərdən, eləcə də sizə qarşı törədilən haqsızlıqlardan bir daha nəticə çıxarın. Günün uğurları sizdən yan keçməyəcək.

**BALIQLAR** - Ulduzların düzümü bu təqvimdə bəzi problemlərlə baş-başa qalacağınızı bəyan edir. Amma təmkin göstərməklə sabit vəziyyət yaşaya bilərsiniz. Tələbkarlığınızı zorakı müstəviyə keçirməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bu qızın nə gözü var, nə burnu



**ABŞ-ın Cənubi Karolina ştatında gözləri və burnu olmadan dünyaya gələn Kasidi Hoper adlı gənc qıza on beş gün ərzində yeni bir üz hazırlanacaq. Şarlotta şəhərindəki Levin Uşaq Xəstəxanasından verilən açıqlamaya görə, hazırda 16 yaşında olan Kasidinin başından alınacaq sümük və qığırdaqlardan ibarət həqiqi bir burun hazırlanacaq. Beləcə, gənc qız dünyaya gəldiyi ilk gündən etibarən nəfəs ala və iyləyə biləcək. ABC Nyus kanalının xəbərinə görə, üzündəki əskikliklərdən savayı heç bir sağlamlıq problemi olmayan Kasidinin üzündə göz və burun dəlikləri açmaq üzrə 11 yaşından etibarən dəfələrlə əməliyyat aparılıb. Bu əməliyyatlar artıq son mərhələyə çatıb. Buna görə gənc qızın açılan burun dəliyinə qığırdaq və sümükdən ibarət həqiqi bir burun "qoyulacaq". Kasdinin göz boşluqlarına daha öncə protez göz də qoyulubmuş. Amma gənc qızın böyüməsi ilə bu gözlər istifadəsiz hala gəlib. Ona görə də protez gözlərin yerinə yeni protezlər qoyulacaq.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100